"23 Nisan" Atatürkün milli suverenlik niyyətindən, ədalətindən, təmiz qəlbindən doğan bir bayram olduğu üçündür ki, bu sevinci həmin gün dünyanın bir çox ölkəsinin uşaqları eyni nəşə ilə qutlayır, dəvət olunduqları bu tören və qutlamaların sevincini bir ömür içlərində, əməllərində yaşadırlar. Uşaqların timsalında dünya ölkələrinə duydurduqları azadlıq və ədalət duyğularına görə Türk uşaqları da bu bayramın mahiyyətini anlayıb qürur duymaqdadırlar. Bir sözlə, 23 Nisan millilikdən dünyəviliyə yüksələn bir duyğu tərbiyə edir. Bax, bu Atatürkün mənəvi ideallarının hər zaman yaşamasıdır!

Atatürkün 23 Nisanla bağlı hər kəsə yol göstərəcək sözlərini təhlil etdikcə görürük ki, bu bayaram bir işıq projektoru kimi gələcəyə işıq ötürür. Nümunə götürməyə səsləyir.

**3. Atatürk idealları Heydər Əliyevin ilham, örnək qayəsi kimi**

Atatürk şəxsiyyətinin iki başlıca cəhəti – siyasi-hərbi fəaliyyəti və ictimai-siyasi ideyaları XX əsrdən, yəni mövcud olduğu tarixdən bir türk xalqı olaraq azərbaycanlıların həmişə xüsusi diqqətində olub. Müstəqil dövlətçiliyimizin olmadığı mərhələlərdə bu bir qürur tarixi kimi yaşanırdısa, milli dövlətçiliyimiz yaranandan bu qürur həm də bir örnək kimi elm, təhsil, araşdırma müstəvisinə adlamaqla insanların düşüncə, həyat tərzinə təsir vasitəsinə çevrildi.

Atatürkün ideyalarının olduğu kimi yayılması, təbliği 1990-cı ilin ortalarından ümummilli lider Heydər Əliyevin milli dövlət quruculuğu proseslərinə başlaması ilə eyni vaxta təsadüf edir. 2001-ci ildə Heydər Əliyevin Atatürk Mərkəzinin yaradılması ilə bağlı sərəncam və fərmanlarınada əks olunduğu kimi, məqsəd Azərbaycanda Atatürk irsinin öyrənilməsi, təbliğ edilməsi və ötürülməsi idi.[4]

Heydər Əliyevə görə, Atatürk ideyaları tarixi həqiqətdir, təkcə bu gün üçün deyil, həm də gələcək üçündür. Bu baxımdan Heydər Əliyev irsində Atatürk, türk soy-kökünə dönüş, özünüdərk, istiqlal düşüncələri ruhu daşımaqla ana Vətənin istiqlalı ideyasını əks etdirməklə milli ruh və vətəndaşlıq mövqeyinin gücləndirilməsidir.

Heydər Əliyevə görə, Atatürk irsi, ideyaları, idealları vətəndir, əbədiyaşar türk sevgisidir. Prezident İlham Əliyevin təbirincə, "Azərbaycan xalqının qəlbindəki duyğuların ifadəsidir." [6]

Heydər Əliyev irsində Atatürk heyranlığı bir dövlət başçısının digər bir dövlət başçısına verdiyi yüksək qiymət deyil, Atatürkün kimliyinə, məqsədyönlüyünə, yenilməz vətəndaşlıq əzminə, "axına qarşı ikiqat, üçqat artıq güclə" yorulmaz səylərlə üzməsinə, görünməyən üfüqdə gördüyü hədəflərinə verilən qiymətdir və bu baxımdan Atatürkü Heydər Əliyev qədər duyan, anlayan, dərk edən ikinci bir dövlət

xadimi tapmaq çətindir. Bir türk oğlunun dünya ilə savaşaraq yaratdığı Türkiyə Cümhuriyyətinin dövlətçilik təcrübələri ona fəaliyyətinin hər iki dövründən yaxşı tanışdır. Heydər Əliyevin milli dövlət quruculuğunda özünü möhkəm özüllü cümhuriyyət ilə təsdiqlədən Atatürk ideyalarına əsaslanmasının bir ortaq məqamı da ümummilli liderin özünün dövlət quruculuğu təsəvvürləri, milli dövlətçiliyin prinsipial əsasları barədə fikirləri, təcrübələri ilə üst-üstə düşməsindədir.

Ona görə də Atatürkün milli-mənəvi idealları Heydər Əliyevin ilham aldığı zəruri mənbələrdən biri olmuşdur: "*Mustafa Kamal Atatürk bəşər tarixinin XX əsrinin ən böyük şəxsiyyətlərindəndir. İstiqalal savaşına başçılıq edərək qalib gəlib Türkiyə Cümhuriyyətini yaratmaqla o, türk xalqına böyük yol açmışdır. Türkiyə Atatürk ideyalarına sadiq olaraq 76 ildir ki, bu yol ilə gedir və böyük nailiyyətlər əldə etmişdir. Qardaş Azərbaycan xalqı Atatürkün şəxsiyyətinə, onun ideyalarına, onun qoyduğu dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşır. Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir."* [5]

Təsadüfi deyildir ki, H.Əliyev Atatürk adına sülh mükafatını həyatındakı bütün mükafatlardan üstün tutur, tədbirdəki çıxışında uzaq gələcəyə hesablanmış bu fikirləri diqqətə çatdırır: *"Mustafa Kamal Atatürkün dediyi sözlər təkcə Türkiyə üçün yox, hamı üçün bu gün də aktual sözlərdir: "Yurdda sülh, bölgədə sülh, cahanda sülh". Biz bunu istəyirik."* [5]

Atatürkün uşaqlarla bağlı milli idealları, onlara cümhuriyyətin gələcəyini etibar etməsi Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, bir Atatürk mənəvi irsinin tərkib hissəsi olaraq ilham mənbəyidir, mənəvi-ideoloji güc aldığı, örnək kimi qiymətləndirdiyi məqamdır.

Əvvəla onu qeyd edək ki, bu dahi şəxsiyyətlər özlərinin qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə müxtəlif zaman kəsiyində öz dövlətçiliklərini xilas etmişlər.Hər iki şəxsiyyət vətənlərinin sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşlar. Bütün həyatları boyu millətini və xalqını sevmiş və millətinin rifahı naminə əllərindən gələni əsirgəməmiş, millətinin milli mənafeyinə zərbə vuracaq amillərlə mübarizə aparmış, vətənin hər qarış torpağını əziz tutmuş və dövlətinə fədakarcasına bağlılıqları ilə seçilmişlər. Və nəhayət mübariz keçmişlərinə bağlılıqları, duyduqları qürur, gələcəyə sonsuz inamlarında, ümidlərində, vətənin gələcək igid övladlarını duyaraq onları öz idealları ilə vəsf etmələrində özünü göstərir.

Həm Atatürk, həm də Heydər Əliyevin gələcəklə bağlı hədəfləri həmişə diqqət mərkəzində olmaqla xüsusi öyrənilmə sahəsidir. Qeyd etdiyimiz kimi, müxtəlif zaman kəsimini ehtiva etsə də tələb, baxış, prinsiplər demək olar ki eyniyyət təşkil edir və bu iki dahi şəxsiyyətin uşaqlara ürək sözlərində milli ideallara xidmət göstərən bəzi sətiraltı məna və məqamların yer aldığı inkar edilməzdir.

Məsələn, böyüyən nəsli gələcəyin təməl daşı hesab etmək Atatürkdə *"Bir milletin ilerlemesindeki temel taş çocuklardır! Çocuklara gereken değeri verirseniz, ilgiyi, şefkati gösterirseniz, onlar da bir gökkuşağı edasıyla geleceği renklendireceklerdir."* kimi ifadə olunursa, bu fikir Heydər Əliyevin çıxışında *"Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz."* əminliyində özünü göstərir.

Yaxud dövlətin xoşbəxt gələcəyini, hədəflərini Atatürk uşaqlara vəzifə kimi tapşıraraq *"Küçük hanımlar, küçük beyler! Sizler hepiniz geleceğin bir gülü, yıldızı ve ikbal ışığısınız. Memleketi asıl ışığa boğacak olan sizsiniz. Kendinizin ne kadar önemli, değerli olduğunuzu düşünerek ona göre çalışınız. Sizlerden çok şey bekliyoruz."* deyir. Heydər Əliyev eyni missiyanı "*Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz"* fikirlərində ifadə edir.

Atatürkün *"Ey yükselen yeni nesil, gelecek sizindir. Cumhuriyeti biz kurduk; onu yükseltecek ve sürdürecek sizsiniz."* fikri Heydər Əliyevin *"Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır"* fikri ilə eyni məqamı nəzərdə tutur.

Atatürkə görə də, Heydər Əliyevə görə də hər bir uşağın şəxsiyyət kimi formalaşdırılması demokratik dövlətin milli təhsil sisteminin, xüsusən müəllimlərin ən ümdə vəzifəsidir. Atatürk gələcəyin

quruculuğunda müəllimlərə xüsusi vəzifələr müəyyənləşdirir: *"Yeni kuşak, en büyük cumhuriyetçilik dersini bugünkü öğretmenler topluluğundan ve onların yetiştirecekleri öğretmenlerden alacaktır...Öğretmenler! Cumhuriyet; fikren, ilmen, fennen, bedenen kuvvetli ve yüksek seciyeli muhafızlar ister. Yeni nesli bu nitelik ve kabiliyette yetiştirmek sizin elinizdedir."*

Heydər Əliyev uşaqların milli və umumbəşəri dəyərlər əsasında formalaşdırılmasını dövlətçilik ideyalarına sədaqət, vətənə, torpağa məhəbbət ilə eyniləşdirir və müəllimlərdən bu keyfiyyətləri tələb edir: *"Məktəb həyatı təkcə təhsil vermir, eyni zamanda bu, yüksək tərbiyə ocağıdır."*

Atatürk və Heydər Əliyev irsində eyniyyət təşkil edən belə nümunələrin sayı çoxdur, məqsəd hamısını bu məqaləyə yığmaq deyil, burada Türkün bir övladının digər övladından nümunə götürməsi və gələcəkdə Türk övladlarına da biri-birindən nümunə götürməklə irəliləməyi məsləhət bilməsi, tövsiyə etməsini öyrənməkdir. Bu mənada Heydər Əliyevin gələcək nəslə Atatürklə bağlı tövsiyələri fikrimizə sübutdur: *"Atatürk ideyalarını yaymaq təbliğ etmək və xalqımıza çatdırmaq üçün, həm də bu ideyalardan faydalanmaq, istifadə etmək sahəsində çox işlər görmüşəm."* [5]

*"Türkiyə və Azərbaycan gənclərinə arzum budur ki, öz cümhuriyyətiərini Mustafa Kamal Atatürk kimi qorusunlar, inkişaf etdirsinlər, daha da yüksəklərə qaldırsınlar."* [5]

## NƏTİCƏ

Araşdırmada Türkiyə Cümhuriyyətin qurucusu Mustafa Kamal Atatürkün hər kəsə məlum uşaq sevgisinin daşıdığı ideyalar təhlilə cəlb edilir. XX əsrin dünyaya bəxş etdiyi ən böyük şəxsiyyətin – böyük Türkün özü kimi də böyük olan uşaq sevgisi milli, mənəvi, siyasi, ümumbəşəri istiqamətdən öyrənilməyə cəhd edilir. Bir sıra maraqlı məqamlar öyrənilir. Atatürkün 23 Nisan bayramının millilikdən çıxaraq dünyəviliyi təbliğ edən mahiyyətinin dünyaya Türkün milli-mənəvi ideallar ötürücüsü olduğu qənaətinə gəlinir.

Araşdırmamızın sonunda bunu da qeyd etməliyik ki, Atatürkün mənəvi ideallarının Azərbaycanda öyrənilməsində Heydər Əliyevin rolu onun fikirlərinin təhlilə cəlb edilməsi ilə sübuta yetirilir. Belə ki, Heydər Əliyev irsində Atatürk ideyalarının öyrənilməsi bir tərəfdən, özünəqədərki irsdən öyrənmə ənənəsinin davamıdırsa, digər tərəfdən isə, fərdi özəllikləri ilə seçilir.

Heydər Əliyev irsində Atatürk ideyaları milli-vətənpərvərlik baxış bucağından gələcəyə ötürülən milli-mənəvi ideallar kimi də maraq doğurur. Heydər Əliyevin Atatürk sevgisi Türk övladının Mustafa Kamal Atatürk sevgisinə nümunə kimi təqdim edilir.

Təsadüfi deyil ki, Atatürk deyir: *"Türk cocuğu əcdadını tanıdıqca daha böyük işlər görmək üçün özündə qüvvə tapacaqdır."*

Başqa sözlə, Heydər Əliyevin konseptual baxışlarında Atatürk ideyaları, idealları bir zirvədir və bu zirvədən yeni mənzərələr açılır.

## ƏDƏBİYYAT

1. Atatürk'ün 23 Nisan ile ilgili yaratıcı sözleri - Mynet

https://www.mynet.com/ataturk-un-23-nisan-ile-ilgili-yaratici-sozleri-en-farkli-23-nisan-mesajlari-sozleri-ve-kisa-siirleri-110106789199

2. Atatürk'ün Ulusal Egemenlik ve Çocuk Bayramı Sözleri

https://www.neoldu.com/ataturk-23-nisan-sozleri-42926h.htm

3. Mustafa Kemal Atatürk'ün 23 Nisan sözleri - Habertürk

https://www.haberturk.com/ataturk-un-23-nisan-sozleri-kucuk-hanimlar-kucuk-beyler-ataturk-un-en-guzel-sozleri-ve-gorselleri-3417223

4. Azərbaycanda Atatürk Mərkəzi haqqında Əsasnamənin təsdiq edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/2814

5. Heydər Əliyev Atatürk haqqında. Azərbaycanda Atatürk Mərkəzi, B., AzAtaM, 2003.

6.“Bakıda Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün abidəsi açılmışdır”. Azərbaycan.- 2010.- 18 may.- S.  4, 5.

# 23 APREL MİLLİ SUVERENLİK, UŞAQ BAYRAMI.UŞAQLARIN TƏRBİYƏSİNDƏ ANA DİLİNİN ROLU

***P.Üz.F.D. Məmmədova Esmira Fərhad Qızı***

*Bakı Şəhəri, Adpu-Nun "Azərbaycan Dili Və Onun Tədrisi Texnologiyası" Kafedrasının Baş Müəllimi*

ORCID ID: 0009-0008-3969-1669

**Açar Sözlər:** uşaq bayramı, suverenlik, uşaq, ana dili, nitq inkişafı, təfəkkür, yaradıcılıq bacarığı, təlim, tərbiyə

**Anahtar Kelimeler:** çocuk bayramı, egemenlik, çocuk, türkçe, konuşma gelişimi, düşünme, yaratıcılık, eyitim

**Ключевые Слова:** детский праздник, суверенитет, ребенок, родной язык, развитие речи, мышление, творчество, обучение, воспитание.

**Key Words:** children's holiday, sovereignty, child, fairy tale, mother tongue, speech development, thinking, creativity, training, education

## XÜLASƏ

Doğma qonşumuz olan Türkiyədə 23 aprel tarixi hər il Milli suverenlik və uşaq bayramı günü kimi qeyd olunur. Bu təkcə Türkiyədə deyil, eyni zamanda da Azərbaycanda da qeyd edilir. Həmin gün Türkiyənin hər bir tərəfində qələbəlik, bayram əhval-ruhiyyəsi yaşanır. Başqa dillərə, dinlərə mənsub olan uşaqlar öz hüquqlarını, öz günlərini qeyd etmək üçün Türkiyə ölkəsinə gəlirlər. onlar türk dilində çıxışlar edib, fikirlərini, hislərini bir-birinə çatdırırlar. Dünyada baş verən hadisələrin bir çox uşaqların hüquqlarını pozmaqla onların gələcəyinə kölgə salır. Ona görə də uşaqlara aid olan bayramların keçirilməsi çox önəmlidir. Onlar özlərini vacib, hörmətli, gələcəyin vacib şəxsiyyəti kimi hiss edirlər.

Həmin günlərdə də ölkəmizdə Türkiyənin 23 aprel Milli suverenlik və uşaq bayramı günü münasibəti ilə bir çox yerlərdə tədbirlər keçirlir və keçirilməkdədir. Tədbirlərin iştirakçısı kimi uşaqların necə sevinərək dünyaya öz səslərini çatdırmağının şahidi olmuşam. 23 aprel Uşaqların Bayramı adlı tədbirlərdə Bakıda fəaliyyət göstərən Türk və Azərbaycan məktəblərinin şagirdləri qatılırlar. Tədbir öncəsi bizə 23 aprel bayramının tarixindən danışılaraq onun uşaqlar üçün vacibliyi qeyd edilir. Bildirilir ki, 23 aprel 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinin qurulması şərəfinə Türkiyə Böyük Millət Məclisi tərəfindən yalnız Türk uşaqlarına deyil, bütün dünya uçaqlarına edilən hədiyyədir. Həmin günün şərəfinə hər il 23 aprel günü qeyd olunan Türkiyənin milli bayramıdır. 1979-cu ildən bu bayram BMT tərəfindən tanınmışdır. 23 aprel bayramı dünyada qeyd edilən yeganə uşaq bayramıdır. Hər il bu bayramı Türkiyədə 30 –dan çox ölkədən gəlmiş minlərlə uşaq qeyd edir.

## GİRİŞ

Bu bayramın da ölkəmizdə keçirilməsi həmişə Türkiyə tərəfindən yüksək qiymətləndirilmişdir. Türk və Azərbaycan uşaqlarının gələcəkdə daha da savadlı olması üçün əlindən gələni edən müəlimlərinə təşəkkür etmək mütləqdir.

Mustafa Kamal Atatürk söyləmişdir: "Uşaqlar bizim ən dəyərli varlığımızdır. Böyük Atatürk "Vətən qədər əziz çocuklar sizə əmanət" .

Belə tədbirlərdə Azərbaycanda təhsil alan türk liseyləri tələbələrinin hazırladıqları çıxışlar nümayiş etdirilir və şeirlər söylənilir.

Bu tədbirlərinə həyata keçməsində öncəliklə təhsil sisteminin düzgün qurulmasının çox böyük önəmi vardır. Uşaqlar öz fikirlərini sərbəst, ifadəli. düzgün söyləmələri üçün müəllimlər çoxlu işlər görməlidirlər. Onlar belə tədbirlərdə öz ana dillərini mükəmməl bilməlidirlər ki, çıxışları insanlara təsir etsin.

Bildiyimiz kimi, təhsil sisteminin başlanğıc təməli olan məktəbəqədər təhsil müəssələrinin qarşısında duran mühüm vəzifələrdən biri uşaqların ana dilinin zənginliyindən istifadə etməyi, öz fikirlərini, arzusunu şifahi nitq vasitəsilə müsahibinin başa düşəcəyi tərzdə düzgün, səlis və aydın danışmağa, fikrini ardıcıl, sərbəst və rabitəli şəkildə ifadə etməsinə nail olmaqdan ibarətdir. Məktəb yaşı çatmamış uşaqların ana dilinə yiyələnməsi, təlim - tərbiyə işinin mühüm vəzifələrindən biridir.

Bildiyimiz kimi, uşaq onu əhatə edən adamların mənəvi dünyasına ana dili vasıtəsilə daxil olur. Əhatəsində olduğu mənəvi varlıqlar uşağın şüurunda doğma dil vasitəsilə öz ifadəsini tapmış olur. Uşaqların nitqinin inkişafı ana dilinin mənimsənilməsi prosesi ilə intensiv şəkildə davam edir, daha fəal bir forma alır və onların həyat tərzinin ayrılmaz bir hissəsinə çevrilir. Bu əsasən uşağın məişətdə, əməkdə, içtimai fəaliyyətdə ana dilinin zənginliyindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində həyata keçirilir, ətraf mühütin əşya və hadisələr nitqdə gerçəkləşir.

23 aprel Türkiyə Böyük Millət Məclisinin açılışı və bu səbəbdən də xalqın rəhbərliyə tam mənasıyla hakim olmasının ilk günü olduğu üçün milli suverenlik baxımından da əhəmiyyətli bir məna daşıyır. Uşaqlar həmin günü əylənir, öz ölkələrinin geyim və ənənələrini nümayiş etdirirlər. Onlar çox xoşbəxt görünürlər. Ayrı-ayrı ölkələrdən olan minlərlə uşaqlar fərqli dillərdə danışsalar da onlar eyni mənsəbə-xoşbəxt olmağa qulluq edirlər. öz dillərini sevərək onları düzgün mənimsəmələri vacibdir.

Hər il onlarla uşaqlar Azərbaycanda da həmin tədbirlərə qatılırlar. Bəziləri öz dillərini başqa ölkədən olan uşaqlara öyrətdiklərinin şahidi də olmuşuq.

Bildiyimiz kimi, Azərbaycan dili əsrlər boyu inkişaf edib, cilalanaraq kamil bir dil səviyyəsinə kimi yüksəlmişdir. Kiçik yaşdan uşaq bilməlidir ki, Azərbaycan və Türk dilləri dünyanın ən gözəl dillərindəndir.

Uşaqlar ana dili vasitəsi ilə hafizəsini, düşünmə qabiliyyətini, müəyyən hadisədən nəticə çıxarmağı, onu yekunlaşdırmağı, ümumiləşdirməyi, digərindən fərqləndirməyi inkişaf etdirə bilir və onda idrak bacarıq tərbiyələnir.

Uşaq ana dilinin yalnız şərti səslərini öyrənmir, o, eyni zamanda ana dilinin doğma döşündən mənəvi həyat və qüvvət içir. Ana dili, təbiəti heç bir təbiətçinin izah edə bilmədiyi bir şəkildə izah edir, o, uşağın onu əhatə edən adamların xarakteri ilə, onun istəkləri ilə heç bir tarixçinin tanış edə bilməyəcəyi bir

tərzdə tanış edir, o, uşağı xalq etiqatlarına, nəhayət, o, elə məntiqi anlayışlar və fəlsəfi görüşlər verir ki, əlbəttə bunu heç bir filosof verə bilməz.

**TƏDQİQAT**

Bütün hadisələr, tədbirlər onların-uşaqların müdafiəsi üçün təşkil olunmalıdır. 23 aprel də məhz belə bayramlar, günlər sırasına daxildir. Artıq ənənə halını almış bu bayramda Türkiyənin hər tərəfində uşaqlar tərəfindən çoşğu ilə bayram kimi qeyd olunur. Uşaqlarımız müəllimlərin hazırladığı tədbirlərdə ailələri ilə bir araya gəlir və bayramı sevinclə qeyd edirlər.

Belə tədbirlərin təşkil olunmasında uşaqlarda vətəninə və xalqına coşqun məhəbbət hissinin tərbiyə edilməsinə, onların ictimai və kolektivçilik ruhunda tərbiyə olunmasına əsas amil kimi xidmət etməlidir.

Uşaq ana dilini öyrənmək yolu ilə öz zehnini yeni təsəvvürlər və surətlərlə, məfhum, fikir və ideyalarla zənginləşdirir. O, söz ehtiyatını yeni sözlər və ifadələrlə artırır, nitqini məntiqi surətdə qurmağa, ardıcıl, rabitəli düşünməyə adət edir. Nəticədə uşaq ana dili vasitəsi ilə hafizəsini, düşünmə qabiliyyətini - müəyyən hadisədən nəticə çıxarmaq, onu yekunlaşdırmaq, ümumiləşdirmək, digərindən fərqləndirmək və s. inkişaf etdirə bilir və onda idrak bacarığı tərbiyələnir.

Müşahidə və təcrübələr göstərir ki, uşaqların tədbirlərdə bütün işlərinin müvəffəqiyyəti uşağın ana dili sahəsindəki uğurlarından əhəmiyyətli dərəcədə asılıdır. Uşaq onu əhatə edən mühit və əşyanı idrak yolu ilə, dərk etdiyi şeyləri isə sözlər vasitəsilə mənimsəyir. Ana dili təlim məşğələləri uşaqlarda xəlqilik hissini inkişaf etdirir və bu hissi onda möhkəmləndirir.

Beləliklə, ana dili müəllimin əlində tədrisin bütün mərhələlərində uşağı təlim edən və tərbiyələndirən mühüm bir amil kimi özünü göstərməkdədir.

Bütün bunlarla yanaşı bədii ədəbiyyatın böyük tərbiyəvi qiymətini də qeyd etmək lazımdır. Bədii ədəbiyyat uşaqlara nəinki şadlıq və fərəh gətirir, o, eyni zamanda onların ətraf mühitdəki həqiqəti dərk etməsinə və gənc nəslin qəlbində milli şüurun ilk əlamətlərinin yetişdirilməsinə kömək edir.

Bədii ədəbiyyatın qiyməti eyni zamanda onun uşağın hərtərəfli inkişaf etməsinə göstərdiyi təsirlərdir. Realist nağıllar, hekayələr və şeirlər ətraf mühiti dərk etmə formalarından biri olub, uşaqlara hər hansı bir hadisəni başa düşməyi, hiss etməyi öyrədir, uşağın şəxsi təcrübəsini genişləndirir, onun biliyini dəqiqləşdirərək tədricən artırır.

Uşağın bədii əsərlə tanışlığı kiçik yaşlardan başlayır. Kiçik məktəbəqədər yaşlı uşaqlar danışılan nağılı həvəslə dinləyir və böyüklərdən nağıl söyləməyi xahiş edirlər. Uşaq altı yaşında ikən artıq 2-3 yaşına nisbətən daha mükəmməl danışıq qabiliyyətinə, danışıq bacarığına malik olur.

Uşaqların bədii tərbiyəsində ana dilinin rolu ondan ibarətdir ki, müxtəlif epik, lirik əsərləri və bədii nümunələri ilə onların bədii zövqünün tərbiyyə edilməsinə və ətraf həyatı daha dərin dərk edib, onu qavramalarına təsir edir.

Beləliklə, uşaq bağçası tərbiyəçiləri uşaqların əqli, fiziki, əxlaqi, əmək, estetik və bədii tərbiyəsi, onların ətraf mühiti dərk etmələri üçün ana dilindən qüdrətli bir vasitə kimi istifadə etməlidirlər.

Uşaq təlimlərinin qarşısında uşaqlara ətrafdakı adamlarla bilavasitə ünsiyyətdə olarkən ana dilindən sərbəst istifadə etməyi və şifahi nitqdə öz fikirlərini dinləyicilər üçün düzgün və aydın söyləməyi öyrətmək, onlarda bədii sözə maraq və məhəbbət hissi tərbiyə etmək kimi vəzifələr durur.

Bu vəzifələr məktəbəqədərki dövrdə uşaqların uşaq bağçasında olduğu bütün il müddətində hər yaş qrupu üçün kurikulum tələbinə müvafiq şəkildə tərbiyəçi tərəfindən həyata keçirilir.

Ana dili həm də bağça yaşlı uşaqlarda təfəkkürün inkişafı, onların görüş dairəsinin genişlənməsi üçün böyük əhəmiyyətə malikdir. Uşaq ətraf aləmi müşahidə və dərk edir, onu əhatə edən hadisələr isə, şübhəsiz, söz vasitəsilə onun şüurunda da möhkəmlənir.

Uşaqlar bədii söz vasitəsilə ədəbi dilə sahib olur və bədii danışma qabiliyyətini mənimsəyirlər. Buna görə də bədii sözün ana dilinin inkişafındakı rolu çox böyükdür, bədii söz vasitəsilə uşaq ana dilini, onun qrammatik quruluşunu öyrənir və öz lüğətini zənginləşdirir.

Söz kiçik yaşlı uşaqların nitq fəaliyyətinə eşidildiyi və tələffüz edildiyi şəkildə təsir edir, uşaq onu əhatə edən ictimai mühitdə eşitdiyi sözləri təhlil etmədən olduğu kimi qavrayır və ifadə edir. Təkrar nəticəsində həmin sözlər beyin qabığı üzərində iz buraxır və möhkəmlənir. Ona görə də uşağın düzgün nitqə yiyələnməsi işində onu əhatə edən yaşlıların düzgün və ədəbi dildə danışmaları böyük əhəmiyyətə malikdir.

Odur ki, uşağın böyüklər tərəfindən eşitdikləri sözlər, cümlələr qrammatik cəhətdən düzgün ifadəli, aydın və anlaşıqlı olmalıdır.

Bu tələb məktəbəqdər yaşlı uşaqların nitqini inkişaf etdirmək işində xüsusilə əhəmiyyətlidir, çünki bu dövrdə uşaq dilin qrammatik quruluşuna yenicə alışmağa başlayır. Bunun üçün həm valideyn, həm də tərbiyəçilər öz nitqlərini bədii və mənalı olması üzərində xüsusilə çalışmalıdır.

Tərbiyəçinin nitqi xüsusilə kiçik yaşlı uşaqlar üçün əsas nümunə olmalıdır. Buna görə də tərbiyəçi öz nitqinin mənasına, sadəliyinə, cümlə quruluşuna diqqət yetirməlidir.

Uşaq bağçalarında uşaqlar müxtəlif məşğələlərdə iştirak edir və bu zaman onların fəaliyyəti əsasən söz vasitəsilə ifadə olunur. Ana dilinin təlim edilməsi işində bədii sözün ən müxtəlif formalarından - nağıl, hekayə, təmsil, şeir, məzhəkə, atalar sözü, tapmacalar, yanıltmaclardan və s. istifadə olunur. Təfəkkürün elementar formaları uşaqlarda məktəbəqədər yaş zamanı tərbiyə və təlim prosesində inkişaf edir.

Ana dili təlimi uşaqların təfəkkür fəaliyyətinin formalaşmasına, müstəqilliyinin və yaradıcı təşəbbüsünün inkişafına kömək edir. Hər bir bədii nümunəyə, xalqın öz sərvətinə dərin məhəbbət tərbiyə edir. Uşaqların yaradıcı təfəkkürü, hadisələri bədii obrazlarla daha səmərəli qavrayır.

Odur ki, müəllimlər xalqımızın mənəvi sərvətlərinə yaxından bələd olmalı, gənc nəslin həyata hazırlığının düzgün istiqamətləndirilməsində bədii ədəbiyyatdan, oradakı müsbət obrazlardan istifadə etməyi bacarmalıdır. Çünki ana dilinə yaxşı yiyələnmək uşaqların müvəffəqiyyətlə təhsil almalarina kömək edir. Bunlar uşaqların tərbiyəsinə təsir edən qüvvətli amillərdəndir və onların mənəviyyatını zənginləşdirir, vətənin ləyaqətli övladları kimi böyüməlrinə müsbət təsir göstərir.

Bütün bu deyilənlər göstərir ki, uşağın inkişafında və tərbiyəsində ana dilinin əhəmiyyəti çox böyükdür və tərbiyəçilər bu sahəyə ciddi fikir verməli, öz işlərinə yaradıcı yanaşmalı və təşəbbüskar olmalıdırlar.

Nəticə etibarilə deməliyik ki, bədii nümunələrdən istifadə edilməsi böyüməkdə olan nəslin Vətənə məhəbbət, torpağa qayğı, xalqa, onun bədii xəzinəsinə sevgi, ekoloji mühitə bağlılıq ruhunda tərbiyəsinə nail olmaq işi asanlaşır. Təklif etdiyimiz məzmunda aparılan işlər zamanı uşaqların əxlaqi-mənəvi normalarının tənzim edilməsi, onların estetik dünyagörüşlərinin formalaşdiriması işində müvəffəqiyyət qazanmaq mümkündür.

Azərbaycan xalqının yaratdığı zəngin şifahi ədəbiyyatın növləri rəngarəngdir. Şifahi ədəbiyyatda zəngin xalq müdrikliyi vardır. Bunlardan biri də xalqın həyat və məişətinin geniş bədii ifadəsini verən qəhrəmanlıq və vətənpərvərlik motivləri ilə cilalanan nağıllardır. Çünki nağıllarda uşaq aləminə daha yaxın, həyatdan götürülmüş hadisələr və qəhrəmanlar təsvir edilir. Öz dili, ifadə tərzi etibarı ilə şeir uşaqlarda böyük maraq oyadır. Şeirlər canlı dildə yaradılmış yüksək bədii təsir gücünə malik əsil sənət nümunələridir.

Uşaqların ana dilinə yiyələnmələrində, nitq fəallığının artırılmasında Məktəbəqədər yaşlı uşaqlara şeirlərin öyrədilməsi, onların bədii tərbiyəsinin dəyəri və zəruri materiallardandır. Şeirdə verilən bədii obrazlar uşaqlarda yüksək hisslər yaradır, onların yaradıcı təxıyyülünün inkişafına səbəb olur. Şeir uşaqlarda qafiyənin, müsiqi ahəngini duymaq və bu qabiliyyəti qazanmaq vərdişini inkişaf etdirib uşağın nitqini, təfəkkürünü zənginləşdirir. Bundan başqa şeir uşaqlarda vətənpərvərlik hissi tərbiyə edir və onların yaradıcılıq fəaliyyətinin təşəkkülünə kömək edir.

Məktəbəqədər yaşlılarda bədii əsərlərə sevgi tərbiyə etmək, onların bədii zövqünü inkişaf etdirmək, poeziyanın ən gözəl və müvafiq nümunələrini onlara aşılamaq məqsədilə uşaq bağçalarında uşaqlara şeir öyrədilməlidir.

Şeirlər uşağın hiss, hərəkət və rəftarına emosional təsir edir və daim şeir eşitməyə həvəs göstərirlər. Şeirin ritmi uşaqları cəlb edir, məzmun isə ikinci plana keçir. Ona görə də uşaqlara elə şeirləri əzbər öyrətmək lazımdır ki, onlar bədii tərbiyyənin bu vəzifələrini yerinə yetirə bilsinlər. Bədii cəhətdən yüksək keyfiyyətli şeir uşağın hissinə qüvvətli təsir göstərir və bütün həyatı boyu onun yadından çıxmır.

Müəllim şeiri seçərkən uşaqların yaş xüsusiyyətləri ilə bərabər şeirin bədiiliyini də nəzərdə tutmalıdır. Kişik yaşlı uşaqlara verilən şeirlərin məzmununu nisbətən mürəkkəb, təsirli, ictimai xarakterli olmalıdır.

Oxumaq və əzbərləmək üçün seçilən şeirlərdə uşaqlara tanış olmayan sözlər, ibarələr nəzərdə tutulmamalıdır. Bunun üçün tərbiyəçi anlaşılmayan sözlərin mənasından istifadə edə bilər. Şeirdə tanış olmayan və anlaşılmayan sözlərə rast gələndə onları əvvəlcədən seçib müsahibə və danışıq zamanı yeri gəldikcə işlətmək olar. Şeir oxunarkən və yaxud əzbər öyrədərkən tərbiyəçi onların fərdi maraqlarını və zövqlərini də nəzərdə tutmalıdır. Oxu zamanı tərbiyəçi uşaqlarda həyacan və başqa hisslərin yaranmasına təsir etməyə çalışmalıdır.

Uşaqların, şeirləri nəinki dinləməsi, hətta əzbər söyləmələri də zəruridir. Şeirlər qafiyə və ahəngdarlığına görə asanlıqla yadda qalır. Kiçik qrup uşaqları bir-iki bənd, böyük, məktəbəhazırlıq qrup uşaqlar isə üç-dörd bənd şeir əzbər öyrənə bilərlər.

Uşaqlara şeir öyrədərkən tərbiyəçinin qarşısında iki məsələ durur:

1. Şeiri yadda saxlamaq.

2. Şeiri ifadəli söyləmək.

Bu iki məsələ eyni vaxtda yerinə yetirilir. Əgər bu iki məsələ növbə ilə yəni ifadəliliyə fikir vermədən, əvvəlcə şeirin əsbərlənməsinə , uşaqlar şeiri əzbər bilmədən sonra isə ifadəli söyləməyə nail olmaq o zaman tərbiyəçi uşaqlara yenidən şeiri ifadəli söyləməyi öyrəytməkdə çətinlik çəkər, çünki onlar şeiri bir tonda söyləməyi vərdiş edirlər, bəzən də sözləri hecalara ayıraraq söyləyirlər:

El bi-lir ki, sən mə-nim-sən,

Yur-dum, yu-bam məs-kə-nim-sən.

Şeiri möhkəm məzmuna müvafiq halda yadda saxlanılması üçün tərbiyəçi onu hissə-hissə sözlərlə deyil, bütünlükdə uşaqlara öyrətməlidir.

Şeirin yaxşı yadda saxlanılması üçün uşaqlarda həmin şeirə yaxşı maraq oyadılmalıdır. Şeirin uşaqların xoşuna gəlməsinin, onlardan canlı surətlərin və hisslərin əmələ gəlməsinin qayğısına qalmaq lazımdır.

Şeirin əzbər öyrədilməsi uşaqlar tərəfindən məcburi xarakter daşımamalıdır. Şeirləri qavramaq üçün uşaqları bacarıqla hazırlamaq lazımdır. Bu məqsədlə əyani vasitələrdən istifadə etmək olar.

Şeirin öyrədilməsində məşğələlərin daha maraqlı, cəlbedici cəhətlərinə xüsusi diqqət yetirilməlidir.

Kiçir qrupda müəllim uşaqlara şeirin öyrədilməsini müxtəlif oyun üsulları vasitəsilə keçirirlər. Çünki, bu zaman uşaqlarda oyunda olduğu kimi emosionallıq yarana bilir.

Əgər müəllim müxtəlif oyun üsullarının köməyi ilə şeiri bir neçə dəfə təkrar edərsə, uşaqlar oynayaraq qeyri-iradi halda həmin şeirin mətnini yadda saxlayırlar.

Şeiri canlı, ifadəli, bədii oxuduqda bu uşaqlarda yüksək əhval-ruhiyyə oyadır ki, şeirdən sonra uşaqlar pilot olmaq, vətəni düşməndən müdafiə etmək arzularını bildirirlər. Şeirlərin keçirilməsində, məşğələlərin daha maraqlı, cəlbedici cəhətlərinə xüsusi diqqət yetirilməlidir. Buna görə də məşğələnin təşkilində əyani vasitələrdən şəkil, oyuncaqlar və sairədən daha geniş surətdə istifadə edilməlidir.

Şeiri oxuyarkən və yaxud əzbər öyrədərkən tərbiyəçi pedaqoji prosesi elə təşkil etmılidir ki, uşaqlar bədii obrazı başa düşsünlər, yəni əsərlərdəki qəhrəmanın şəxsiyyətini qiymətləndirə bilsinlər. Oxu prosesi uşaqlarda təbiət və hadisələrə qarşı müsbət hisslər və maraq oyatmalıdır.

Müəllim şeiri oxuduqca uşaq əlindəki oyuncaq pişiyi tumarlayır. Uşaqlar da pişiyi tumarlamaq istədiklərinə görə şeir bir neçə dəfə oxunur. Buna görə də kiçik qrupda məşğələnin təşkilində əyani vəsaitlərdən şəkil, oyuncaqlardan istifadə edilməlidir.

Şeirin bu qayda ilə keçirilməsi, ayrı-ayrı rolların uşaqlar arasında bölüşdürülməsi uşaqları olduqca əyləndirir, onlarda xoş-əhvali ruhiyyə yaradır və şeir, oyun dramatizasiya formasında keçirilir.

Əgər şeiri əzbərləmək üçün uşaqlara adi şəkildə təkrar etdirsək, bu kiçik uşaqları tez darıxdırır. Pişiyi tumarlayaraq şeiri dinləmək uşaqlar üçün maraqlı olur. Çünki bu oyundur, oyun isə həmişə uşaqları maraqlandırır və yormur. Oyun metodları vasitəsilə şeirlər yaxşı yadda saxlanılır.

Müəllimi şeiri ifadəli, bədii surətdə oxumalıdır ki, uşaqlar onu dərindən hiss edib, başa düşə bilsinlər. Bu müəllimdən böyük yaradıcılıq məharəti tələb edir. Buna görə də, uşaqların şeirləri yaxşı qavramaları üçün, mətin və yeni sözləri qabaqcadan izah etmək və təbiəti müşahidə etdirmək lazımdır.

Böyük və məktəbəhazırlıq qrup uşaqlara şeiri əzbər öyrədərkən müəllim uşaqların şeirin məzmununu anlamalarına və onu şüurlu surətdə başa düşərək öyrənmələrinə çalışmalıdır. Bunun üçün:

a) şeiri ayrı-ayrı yerlərini sadə və lazımi hiss ilə necə oxumağı uşaqlara müvafiq dillə izah etmək;

b) əgər mümkündürsə, şeirin məzmunu ilə əlaqədar olaraq onların baş verən müvafiq hadisələri xatırlatmaq;

c) ən sadə oyun üsullarınndan istifadə etmək, haqqında şeir söylənən oyun hərəkətlərini göstərərək şeir söyləmək.

Məşğələnin əvvəlində şeirin dərk edilməsi və yadda saxlanılması üçün uşaqlarda müvafiq hal yaratmaq lazımdır. Məsələn, uşaqlara əsərin məzmunu ilə əlaqədar olan suallar verilməli və ya şeirin məzmununa yaxın olaraq onların həyatından hadisələr xattırlatmalıdır. Sonra tərbiyıçi şeiri əzbər oxuyur. Tərbiyəçi şeiri əzbər öyrənəcəklərini bildirir. Şeiri bir neçə dəfə oxuduqdan sonra tərbiyəçi uşaqları bir-bir cağırır və şeiri təkrar etdirir. O, əvvəlcə şeiri tez yadda saxlayan və onu söyləmək arzusunda olan uşaqlara, sonra isə qalan uşaqlara söyləməyi təklif edir. Uşaqların şeiri belə fərdi söyləməsi tərbiyəçinin köməyi ilə keçirilir. Növbəti məşğələlərdə həmin şeirin təkrarına on dəqiqə vaxt ayrılır və şeiri əzbər deməyən uşaqlar söyləyirlər. Beləliklə, tərbiyəçi şeirin hər bir uşağın yadında qalmasına nail olur.

Müəllim şeiri uşaqlara qışqırmadan, tələsmədən söylətməlidir. Şeiri lazım olmayan fasilə ilə, həddən artıq uca səslə, yersiz hərəkətlər edərək söylənilməsinə yol verməməlidir, çünki bunlar uşaqlara pis təsir edir və onları şeirin məzmunundan uzaqlaşdırır.

Şeiri söyləyərkən müəllim onun məzmunun uşaqlar tərəfindən necə qavranılmasına, uşaqların diqqətli olmalarına, yorğunluq əlamətlərinin olub-olmamasına fikir verməlidir. Yorğunluq zamanı şeirin öyrədilməsini davam etdirmək məqsədə uyğun deyildir. Bu zaman başqa şeirlərin təkrarına, yaxud şeirin məzmununa uyğun tapmaca, atalar sözü və yanıltmacların söylənməsinə sərf etmək yaxşı olar.

Öyrənilmiş şeirlər təkrar edilmədikdə tez yaddan çıxır. Ona görə öyrənilmiş şeirlərin təkrar edilməsi üçün vaxtaşırı, ayda bir dəfə məşğələ keçirilməlidir. Bu məşğələlərdə şeiri çətin yadında saxlayan uşaqlara söylətmək lazımdır.

## NƏTİCƏ

Ölkəmizdə uşaqların sağlam, hərtərəfli, Vətənə layiqli övladlar kimi böyümələri üçün hər cür şərait yaradılıbdır. Təbii ki, uşaq hüquqları da insan haqlarının ən mühüm və ayrılmaz hissələrindən biridir. Uşaqlar bizim gələcəyimizdir və ölkənin gələcəyi onların əlindədir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondunun keçmiş prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, vitse prezident Mehriban xanım Əliyeva xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olmuş uşaqlara diqqət və qayğı ilə həmişə yanaşır.

Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlərin keçirilməsinə təkan verir. Məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə qaçqın və məcburi köçkün ailələrindən olan, eləcə də imkansız uşaqlara xüsusi diqqət ayrılır. Əlilliyi olan uşaqların cəmiyyətə qatılması və inteqrasiya olunması istiqamətində tədbirlər həyata keçirilir. Bu tədbirlərdən ən önəmlisi 23 aprellə-Türkiyə Milli suverenlik Uşaq bayramı ilə bağlı olan tədbirlərdir. Bütün dünyada olan uşaqları bu bayram münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Bu yerdə Azərbaycanın Xalq şairi, düşünən və düşündürən mütəfəkkir Bəxtiyar Vahabzadənin "Azərbaycan – Türkiyə" şeiri yada düşür:

Bir millətik, iki dövlət

Eyni arzu, eyni niyyət

Hər ikisi Cümhuriyyət

Azərbaycan-Türkiyə.

Bir ananın iki oğlu

Bir ağacın iki qolu

O da ulu, bu da ulu

Azərbaycan-Türkiyə.

Ana yurdda yuva qurdum

Ata yurda könül verdim

Ana yurdum, ata yurdum

Azərbaycan-Türkiyə.

Birdir bizim hər halımız

Diləyimiz, amalımız

Bayraqlarda hilalımız

Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir

Ayımız bir,ilimiz bir

Eşqimiz bir, yolumuz bir

Azərbaycan-Türkiyə.

Əziz uşaqlar, sevilin, sevin. Siz bizim üçün çox dəyərlisiniz!

**ƏDƏBİYYAT:**

1. http://az.baku-art.com/az/bir-millet-iki-dovlet-az-rbaycan-turkiye

2. https://atib.az/main/543-23-aprel-milli-suverenlik-v-uaq-bayram-gn.html

3.https://az.wikipedia.org/wiki/Millil%C9%99%C5%9Fdirm%C9%99

4.B. Paşayeva – "Nitq inkişafının metodikası"  Bakı  2004

# AZƏRBAYCAN - TÜRKİYƏ MÜNASİBƏLƏRİ SOVET HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ

## ("KOMMUNİST" QƏZETİNİN MATERİALLARI ƏSASINDA)

# SOVYET YÖNETİMİNİN İLK YILLARINDA AZERBAYCAN - TÜRKİYE İLİŞKİLERİ

## (KOMMUNİST QAZETESİ KAYNAQLARINA BİR BAKIŞ)

# TURKISH THEME IN THE AZERBAIJANI PRESS DURING THE FIRST YEARS OF SOVIET RULE

## (BASED ON NEWS STORIES PUBLISHED IN THE "KOMMUNIST" NEWSPAPER)

# ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАН-ТУРЦИЯ В ПЕРВЫЕ ГОДЫ СОВЕТСКОЙ ВЛАСТИ

## (ВЗГЛЯД НА МАТЕРИАЛЫ ГАЗЕТЫ «КОММУНИСТ»)

***Namiq ƏHMƏDOV***

*Bakı Dövlət Universiteti, Filologiya üzrə fəlsəfə doktoru*

*ORCID ID:0000-0003-1970-182X*

**XÜLASƏ**

Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu ciddi maraq doğuran və populyarlıq qazanan mövzulardan olmuşdur. Təqdim edilən məqalədə də Sovet hökumətinin ilk illərində dövrün çox populyar mətbuat orqanlarında dərc edilən məqalə və xəbərlərdə türkçülüyə qarşı qısqançlıq meyllərinin olmasına baxmayaraq, Türkiyə və türkçülük haqqında yazıların kifayət qədər çox və əhatəli olması faktlarla təsdiq edilir. Eləcə də ölkənin baş mətbu orqanı olan "Kommunist" qəzetinin əlifba islahatının həyata keçirilməsində, Şərq xalqlarının və Türkoloji qurultayların informasiya-təbliğat işinin aparılmasında önəmli vasitə olması diqqətə çatdırılır. O da diqqətə çatdırılır ki, Elmlər Akademiyasının, ədəbi-bədii təşkilatların hələ formalaşmadığı illərdə redaksiya milli qüvvələri ətrafında toplayan mənəvi mərkəz rolunu oynamışdır.

Amma bir məsələni də yaddan çıxarmaq olmazdı ki, qəzet, eləcə də "Kommunist" qəzeti orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirmək üçün təsis edilib və onun vəsaiti ilə nəşr olunurdu. Bununla belə qəzet milli təəssübkeşliyini unutmamış, coxsayli məqalələrdə milli dünyagörüşün qorunmasına çalışılmış və müntəzəm olaraq bunun cəzasını çəkmiş, ciddi tənqid və təqiblərə məruz qalmışdır.

"Kommunist" qəzetində 1920-ci illərdə yer alan məqalələr Türkiyə-Sovet dostluğuna, Türkiyə ilə münasibətlərin gələcəyinə inam yaratmaqda idi. Təəssüf ki, sonralar məlum oldu ki, bunlar Türkiyəni kommunist yoluna gətirmək üçün Sovet dövlətinin daxili və xarici siyasətindən irəli gələn plan imiş. Təbii ki, bu plan baş tutmayanda repressiyalar başlandı və bu qəzetdən də yan keçmədi. Müəlliflərin "millətçilik", "türkçülük" adı ilə təqibi başlandı. Faktlar var ki, "Kommunist" qəzetindəki "millətçilik yuvası"nı dağıtmaq üçün dəfələrlə çox yüksək səviyyədə ciddi tədbirlər həyata keçirilmişdir.

**Açar sözlər:** "Kommunist" qəzeti, Türkiyə-Sovet dostluğu, Sovet dövrü, millətçilik, türkçülük.

**ÖZET**

Sovyet dönemi Azerbaycan basınında Türkiye konusu ciddi merak uyandıran konulardan biri olmuştur. Bu makalede Sovyet hâkimiyetinin ilk yıllarında, dönemin basın organlarında yayınlanmış makale ve haberlerde Türkçülüğe karşı kıskanç tavırlar olmasına rağmen Türkiye ve Türkçülük hakkında yazıların çok ve detaylı olması örneklerle doğrulanıyor. Ayrıca "Komünist" gazetesinin alfabe reformu gerçekleştirilmesinde Doğu ülkelerinin ve Türkoloji Kurultaylarının bilgi ve propaganda işinin önemli bir araç olması gösteriliyor. İlimler Akademisi'nin, edebi-kültürel kurumların daha kurulmadığı yıllarda yayın evleri millî güçleri etrafında toplayan manevi merkez rolünde olmuştur.

Ama unutmamalıyız ki, gazeteler bağlı oldukları ana kurumların siyasetini yürütmek için yaratılmıştı ve onun maddi desteği ile basılıyordu. Bununla birlikte gazeteler millî düşünceyi unutmamış, makalelerin çoğunda millî bakış açısını korumaya çalışmış ve devamlı bunun cezasını çekmiştir.

"Komünist" gazetesinde 1920'lerde yayınlanmış makaleler Türkiye-Sovyet dostluğuna, Türkiye ile ilişkilerin geleceğine güven duygusu oluşturuyordu. Maalesef sonraları bunun Türkiye'yi komünist yapmak için Sovyet hükümetinin iç ve dış siyasetinin bir parçası olduğu belli oldu. Tabii ki, bu plan gerçekleşmediğinde baskılar başladı ve bu gazeteleri de es geçmedi. Yazarlar takip edilmeye başlandı. "Komünist" gazetesindeki "milliyetçilik yuvası"nı dağıtmak için defalarca girişimlerde bulunulduğuna dair belgeler var.

**Anahtar kelimeler:** "Komünist" gazetesi, Türkiye-Sovyet dostluğu, Sovyet dönemi, milliyetçilik, Türkçülük.

**ABSTRACT**

Turkish theme was one of the topics of great interest in the Azerbaijani press in the Soviet era. This article provides factual evidence that there were quite a lot of comprehensive writings about Turkey and Turkism, though the articles and news published in most popular press media of the time in the early years of the Soviet government were savored with envy and jealousy towards Turkism. Also the article brings to attention the role of the "Kommunist" newspaper as an important tool in the implementation of the alphabetic reform, conducting of information and propaganda work of the Eastern peoples and Turkic congresses. It is shown that in the years when the Academy of Sciences, literary-artistic organizations have not yet been formed, the newspaper editorial has played the role of a spiritual center, which has gathered national forces around itself.

But at the same time it should not be forgotten that the newspaper was founded to carry out the policy of and published by means of the resources of the governing organization, which it was a body of. Nevertheless, the newspaper has never abandoned its national affiliation, always sought to protect the national identity in numerous articles, and has been punished for such a stance from time to time.

The articles published in the "Kommunist" newspaper in the 1920s were building confidence in Turkish-Soviet friendship and the future of relations with Turkey. Unfortunately, it became clear later on that it was a plan stemming from domestic and foreign policies of the Soviet government to bring Turkey to the communist path. Needless to say that repression was unleashed when this plan did not work, and the newspaper was not spared as well. Prosecution of the authors has been initiated on the grounds of "nationalism", "Turkism". There have been cases of tough measures taken repeatedly at a very high level to disperse the "nationalist nest" in the "Kommunist" newspaper.

**Key words:** "Kommunist" newspaper, Turkish-Soviet friendship, Soviet era, nationalism, Turkism.

**РЕЗЮМЕ**

Турецкая тема была одной из тем, представляющих большой интерес для азербайджанской прессы советской эпохи. В статье приведены факты, доказывающие наличие довольно большого количества всеобъемлющих статьей о Турции и тюркизме, хотя и с проявлениями ревности к тюркизму, имевшими место в статьях и новостях, опубликованных в самых популярных органах печати в первые годы существования советского правительства. В работе также отмечается роль газеты «Коммунист» как важного инструмента в осуществлении реформы алфавита, проведении информационно-пропагандистской работы народов Востока и тюркологических съездов. Отмечается, что в те годы, когда Академия наук и литературно-художественные организации еще не были сформированы, редакция газеты играла роль духовного центра, объединившего вокруг себя национальные силы.

Но, не следует забывать еще и тот факт, что газета была учреждена для проведения политики и издавалась за счет средств руководящей организации, органом которой она являлась. Тем не менее, помня о своей национальной принадлежности, газета всегда стояла на защите национальных интересов, стремилась сохранить национальное мировосприятие в многочисленных статьях, за что и наказывалась систематически.

Статьи, опубликованные в газете «Коммунист» в 1920-х годах, развивали веру в турецко-советскую дружбу и будущее отношений с Турцией. К сожалению, позже стало ясно, что это был план, исходивший из внутренней и внешней политики советского правительства, имевший целью переманить Турцию на коммунистический путь развития. Естественно, когда этот план не удался, начались репрессии, которые не обошли стороной и газету. Началось преследование авторов под предлогом «национализма» и «тюркизма». Имеются факты, подтверждающие строгие меры, которые неоднократно были приняты на самом высоком уровне, с целью ликвидации «националистического гнезда» в газете «Коммунист».

**Ключевые слова:** газета «Коммунист», турецко-советская дружба, Советская эпоха, национализм, тюркизм.

## GİRİŞ

Bolşeviklərin və Sovet hakimiyyətinin Azərbaycanda qələbəsi Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə nəticələndi. Bu dövr bütün Şərqdə, eləcə də Türk–İslam dünyasında ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin bütün müsəlman dünyasında ilk demokratik respublika kimi tarixə düşdüyü siyasi bir dövrdür.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) Paris sülh konfransının qərarına (1920, 11 yanvar) əsasən müstəqil dövlət kimi tanınmışdı. Bununla da Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini bərpa edilmiş, insan hüquq və azadlıqlarının təmin edilməsinə, irqi, milli, dini, sinfi və digər sosial bərabərsizliklərin ləğvinə şərait yaradılmışdı. Siyasi quruluşuna, həyata keçirdiyi demokratik tədbirlərə, qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsinə görə də, AXC dünyanın ən demokratik qurluşları ilə müqayisə edilirdi. Dünyanın bir çox ölkələri ilə (Türkiyə, İran, Ukrayna, Böyük Britaniya,

ABŞ, Fransa, İtaliya, Polşa, İsveç, İsveçrə, Latviya, Litva, Estoniya, Finlandiya, Rumıniya, Almaniya, Gürcüstan, Ermənistan, Dağlılar Respublikası, Krım və b.) səfirlik və nümayəndəlliklər səviyyəsində diplomatik münasibətlər yaradılmış, ikitərəfli və çoxtərəfli müqavilələr, sazişlər bağlamışdı. O da qeyd edilməlidir ki, 1918-ci ilin 28 mayında müsəlman Şərqində ilk demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin möhkəmlənməsində Türkiyə yaxından iştirak etmiş, Türkiyənin dəstəyi ilə Azərbaycanın müstəqilliyi təmin olunmuş, Qafqaz İslam Ordusunun göstərdiyi yardım ilə bolşeviklərin və daşnakların Bakı və ətraf rayonlarda ağalığına son qoyulmuşdur. Amma 1920-ci il aprelin 28-də beynəlxalq hüquq normalannı kobudcasına pozan Sovet Rusiyasının hərbi müdaxiləsi nəticəsində AXC hakimiyyətinə son qoyuldu və Azərbaycanın şimalı rus-bolşevik qoşunları tərəfindən işğal edildi. "Bolşeviklər 1920-ci ilin aprelindən 1921-ci ilin avqustuna kimi əksəriyyəti ziyalılar olan 48 min insanı güllələmişlər" (Nəzərli, 1995:197)

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Bakıda bolşevik hökumətinin qurulmasından sonra respublikada müstəqil və demokratik mətbuat ənənələrinə son qoyulmuş, Xalq Komissarları Soveti 27 oktyabr 1920-ci ildə "Mətbuat haqqında" Dekret imzalamış, mətbuata qarşı açıq repressiya xarakteri daşıyan bu sənədlə 2 ay ərzində 92 qəzet bağlanmışdı. Amma sovet rejimi bir çox məsələlərdə, o cümlədən Azərbaycan-Türkiyə münasibətlərində xalqlarımızın tarixdən gələn bağlılıqlarını birmənalı olaraq qırmaq cəhdində olmamışdır. Bu daha çox Sovet hakimiyyətinin ilk illərində özünü təsdiqləmiş, münasibətlərin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövlətlərarası münasibətlərin əsas reallıqlarından olmuşdur.

Birinci Dünya müharibəsindən sonra Sovet Rusiyası ilə Türkiyə arasında münasibətlərin yaxşılaşdırılmasının vacibiyini qəbul edən V.İ.Lenin və M.K.Atatürk bu münasibətlərin təməlini qoya bildilər. Sonralar bunun həm də siyasi bir məqsəd olduğu və Türkiyənin kommunistləşdirilməsi yolunda ciddi bir önəm daşıdığı diqqətdən yayınmamışdır.

**1.Sovet dövrü Azərbaycan-Türkiyə əlaqələrinin ilk illəri**

Sovet dövrü Azərbaycan mətbuatında Türkiyə mövzusu bütün qadağalara baxmayaraq cəmiyyətin daim açlıq duyduğu və ciddi maraq doğuran mövzulardan olmuşdur. 70 illik bir tarixi özündə birləşdirən bu əlaqələrin tarixi həm vaxt, zaman baxımından, həm də mahiyyət baxımından müəyyən mərhələlərdə vacib və ziddiyətli olmuşdur. "1920-ci ildə bağımsız Azərbaycan Sovetlər Birliyi tərəfindən işğal olunduqdan sonra ilk on ildə ədəbi əlaqələr davam etmiş... Buna şərait yaradan səbəblərdən biri Demokratik Cümhuriyyət dövründə Azərbaycan-Türkiyə arasında ədəbi-mədəni əlaqələrin güclənməsi, Türk aydın və ziyalılarının Azərbaycan təhsil müəssisələrinə dəvət olunması, türk şair və yazıçılarının əsərlərinin geniş səviyyədə tədrisi ilə əlaqədar idi" (Bağırlı,2016:279).

Amma sonradan, o cümlədən repressiya illərində "bu ilişkilər, bu sıx ünsiyyət 30-cu illərdə ideoloji yasaq və qadağalarla üzləşdi (Bağırlı,2016:279). Sovet təbliğat sisteminin sərt təpkiləri ucbatından Türkiyə-Azərbaycan arasındakı münasibətlər "30 ildən çox, 40 ilə yaxın soyuqluq olmuş, türk sevdası ancaq ayrı-ayrı aydınların, ziyalıların, söz adamlarının daxilindəki işıq sayəsində sönməmişdir" (Bağırlı,2016:279). Əslində bu dövr Stalinin ölümünə (1953) qədər davam etmiş, özünü daha çox təcavüz və düşmənçilik aspektində göstərmişdir. Tədqiqatçıların nəzərindən qaçmayan zəruri hadisələr də illərə görə təyin olunmuş bölgünü təsdiq etmiş, onun mərhələlərlə öyrənilməsinə çalışılmışdır. Çəsarətlə demək olar ki, bu bölgü Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrində təsdiqini tapmışdır.

Azərbaycanda Sovet hökumətinin ilk illəri Türkiyə ilə münasibətlərin birinci mərhələsi kimi qəbul edilir. Birinci mərhələ şərti olaraq Azərbaycanda Sovet hökumətinin qurulduğu 28 may 1920-ci il tarixindən sonrakı, təqribən 10 ilə qədər olan bir dövrü əhatə edir və bu əlaqələrin sıx bir şəkildə davam etdiyini ortaya qoyan önəmli hadisələrlə zəngindir. Bu dövr tarixi baxımdan məhsuldar olduğu qədər də, ziddiyətli, eyni zamanda vacib bir mərhələ olmuşdur. Tarixi reallıqlar prizmasından baxanda hər iki dövlətin bütün parametrlərdə siyasətini və maraqlarını təmin etmişdir. Hətta Moskvanın razılığı ilə Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətində səfirliyi belə olmuşdur.

1921-ci ildə Nəriman Nərimanovun tövsiyəsi ilə Azərbaycan SSR-in, sonra isə ZSFSR-in Türkiyədə fövqəladə və səlahiyyətli səfiri olmuş İbrahim Əbilovün Sovet-Türkiyə, o cümlədən Azərbaycan-Türkiyə dostluq münasibətlərinin formalaşmasında və möhkəmləndirilməsində böyük rolu olmuşdur. Səfir İbrahim Əbilovun bu təyinatı və bir azərbaycanlı kimi onun özü, nəinki türk hökumət dairələri, eləcə də türk xalqının ən müxtəlif zümrələri tərəfindən böyük bir coşqunluqla qarşılanmışdır. Ankaraya gedən Azərbaycanın diplomatik nümayəndəliyinin yolüstü Kastamonuda dayanması və burada böyük bir sevinclə qarşılanma mərasimindən yazan Türkiyənin “Açıq söz” (Açıksöz) qəzetinin baş redaktoru İsmayıl Həbib (Sevük) “Qardaş ölkənin səfiri” adlı baş məqaləsində “… dünən axşam buraya gələn və bu gün bizim əziz qonağımız olan səfir qarışıq bir hökumətin, dost bir hökumətin, bilməm necə bir hökumətin deyil, birbaşa qardaş bir hökumətin səfiridir" deyərək qardaşlıq hüququnu önə çıxarmaqla azərbaycanlı səfirdən bəhs etmişdir. Baş redaktor "Bizim tarixlərimiz bir, dinimiz bir, bizim Azərbaycanla dilimiz bir, qanımız birdir. Tarixi bir araya gətirdik və tariximizi birlikdə yoğurduq. Azərbaycanla bir gündə beş dəfə üzümüzü Məkkədəki Allahın evinə çeviririk. Gündə beş dəfə Azərbaycan və qüvvələrimiz Allahın sədəqətini bağlayırlar. Dilimizin şivəsi bəlkə bir az fərqlidir, lakin kökü eynidır. Dualarımızı eyni dildə edir, mevlitlerimizi eyni dildə okutuyor, hislərimizi eyni sözlərlə ifadə edirik. Azərbaycanla biz yalnız tarixdə, yalnız dində və dildə deyil, qanda və irqdə də bərabərik. Biz onun qanında və o bizim irqimizdədir ... " şəklində tarixi, dini, irqi bağları önə çıxaran ifadələr işlətmişdir (İsmail,1921:Açıksöz).

Heç şübhə yoxdur ki, möhtərəm səfir qeyri bir millətin nümayəndəsi olsa idi, sayın İsmayıı əfəndi belə bir yazını yazmaq fikrində belə olmayacaqdı. Təbii ki, bu heç bir şərhə və yozuma ehtiyacı olmayan, ancaq qırılmaz və qardaşlıq telləri ilə bir-birinə bağlı olan bir ürəyin riqqəti idi. Bunu Atatürkün səfirlə isti görüşləri də təsdiqləyir. “1921-ci il noyabrın 18-də İbrahim Əbilov və Türkiyə Böyük Millət Məclisinin sədri və Baş Komandan Qazi Mustafa Kamal Paşanın çıxışlarının sonunda Azərbaycan səfirliyi binasında mərasim keçirildi və bayraq qaldırıldı” (Şimşir, 2012:32).

Yeri gəlmişkən qeyd edilməlidir ki, o dövrdə Memduh Şevket Esendal (1883-1952) TBMM hökumətinin ilk elçisi kimi 1920-ci ildə Azərbaycana göndərilir. Memduh Şevket Esendal özünü sosialist təfəkkürlü, Türkiyədə sosialist hökumətinin qurulmasını istəyən, dünya inqilabı tərəfdarı kimi təqdim etməklə Azərbaycan hökumətinin nazirlərinin və yüksək səviyyəli bürokratlarının hörmətini qazanmışdı. Bunlar Azərbaycandakı keçmiş Osmanlı dövlətinin vətəndaşlarına və ya Azərbaycandakı millətçi və vətənpərvər insanlara faydalı idi. Rusiya tərəfindən əsir götürülən Osmanlı ordusu mənsublarına və onların sırasında DTK-nın təzyiqinə məruz qalan bir çox insanın Türkiyəyə getməsinə kömək edir (Şamil,2016:23).

Göründüyi kimi müəyyən dövrlərdə bəzi fikir ayrılıqları olsa belə, nə hadisələrin gedişi və tələbləri, nə də hakimiyyət dəyişiklikləri xalqlarımızın birliyini poza bilməmişdir. Bunun da önəmi o olmuşdur ki, “Türkiyə ilə Azərbaycan arasındakı sıx münasibətlər ortaq tarixə və köklərə söykənir. Onun ortaq dili,

mədəniyyəti, adət-ənənələri var, iki qardaş ölkədir, xalqları arasında tarixi qohumluq vardır (Arıkan, Çelebi,2016:345). Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamı, Ümummilli Lider Heydər Əliyevin birliyimizin möhtəşəm sloqanına çevrilmiş "Bir millət – iki dövlət" ifadəsi müasir dövrdə Azərbaycan–Türkiyə münasibətlərinin məzmununu və yönünü aydın göstərir.

**2. Bakı: türkçülüyün paytaxtı**

Maraqlıdır ki, şərqdə ilk Demokratik Respublikasının-ADR-in süqutundan sonra, kommunist rejiminin qələbəsinin bərqərər olduğu ilk illərdə Bakı təkcə Azərbaycanın yox, həm də Şərq xalqlarının, eləcə də Türkiyəni kommunist yoluna istiqamətləndirmək uğrunda paytaxta çevrilmişdı. Amma bolşeviklərin bu məramı o zamanlar heç kəsin ağlından belə keçməmiş, əksinə bolşevik rejimin siyasi xəttinə bütün gücləri ilə dəstək verən Nəriman Nərimanov kimi siyasi xadimlərin bu ideyaların möhkəmlənməsində əvəzsiz xidmətləri olmuşdur. 1920-ci ildə Yaxın və Orta Şərqin qovuşuğunda yeni bir dövlətin - əhalisi əsasən müsəlmanlardan ibarət olan Azərbaycan Sovet Sosialist Respublikasının yaranması bu regiondakı ölkələrin qarşılıqlı münasibətlərinə və ictimai-siyasi vəziyyətə ciddi təsir etməkdə idi. Hətta Azərbaycanda sovet hakimiyyətinin qurulmasına böyük əhəmiyyət verirən sovet rəhbəri V.İ.Lenin ölkənin beynəlxalq və daxili vəziyyətinin möhkəmlənməsində, Şərqdə sosialist ideyalarının yayılmasında sovet Azərbaycanının roluna xüsusi dəyər vermiş və bu fikirlərini ən yüksək tribunalardan dəfələrlə vurğulamışdı (Агамалиоглы, Бакинский рабочий: 1925).

Şərq Xalqlarının I qurultayının (1920, 1-7 sentyabr), Şərq Gəncləri qurultayının (1920, 9-10 sentyabr) təmtəraqlı şəkildə Bakıda keçirilməsi şübhəsiz ki, bu amillərdən doğurdu və sonralar bəlli olduğu kimi Şərq xalqları arasında inqilabi təbliğat işi aparmaq və milli azadlıq hərəkatlarını idarə etmək üçün bu ən uğurlu vasitə idi. Eyni zamanda Şərq Xalqlarının birinci qurultayı Şərq ölkələrində imperializmə və müstəmləkəçiliyə qarşı mübarizə aparan inqilabi qüvvələrin yüksəlişini, onların həmrəyliyinin artmasını nümayiş etdirdi. İngiltərənin nüfuzlu "Mançester Qardian" qəzetinın yazdığı kimi: "İndi Rusiya Şərqdə həmişəkindən daha güclüdür" (Коммунистический интернационал:1920). Bu həm də Şərq xalqları qurultayının imperialistləri, müstəmləkəçiləri necə narahat etdiyinin də göstəricisi idi. "Bolşeviklər Azərbaycanda möhkəmlənmişlər, onun paytaxtı Bakı İranda və Xəzər dənizindən şərqə doğru vilayətlərdə siyasi təbliğatın mərkəzi olmuşdur. Nəhayət, lap bu yaxınlarda Bakıda bolşeviklərin rəhbərliyi altında Şərq Xalqlarının Birinci Qurultayı keçirilmiş və o, Qərbi Avropaya müqəddəs müharibə elan etmişdir" (Quliyev,1960: Azərbaycan kommunisti).

Digər tərəfdən kommunist-bolşevik rejiminin Türkiyə Respublikasına maddi dəstəyi hər iki ölkənin təkcə qonşuluq siyasətindən yox, daha çox dünyadakı siyasi vəziyyətdən irəli gəlirdı. Bu dönəm həm də özlərinin siyasi maraqlarını önə çəkən kommunistlər Türkiyə ilə münasibətlərini daha da yaxınlaşdırmaq üçün daha bir mühüm layihənin həyata keçirilər: Bakıda Birinci Türkoloji Qurultay (*1926, 26 fevral-5 mart)* çağrılır.

Türkologiyanı böyük və sistemli elmi təlim kimi təqdim edən Bakı Türkoloji Qurultayı böyük əks-səda doğurmuş, haqqında mətbuatda gedən yazılar silsiləsi bu dəyəri dəfələrlə artırmışdı. Səkkiz gün davam edən bu mötəbər tədbirdə müxtəlif ölkələrdən 131 nümayəndə iştirak etmiş, müzakirəyə çıxarılan türk xalqlarının ortaq dili, tarixi və ədəbiyyatı məsələləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Hələ o zaman qrultayın çağrıldığı ərəfədə və fəaliyyəti dövründə "Yeni fikir", "Maarif və mədəniyyət", "Maarif işcisi", "Yeni məktəb", "Dan ulduzu", "Kommunist" kimi dövrü mətbuat orqanlarında və məcmuələrdə qurultay haqqında, onun təşkili və perespektivlərinə həsr olunan 300-ə qədər müxtəlif səpkili məqalə

dərc olunmuşdu. Ölkənin bir nömrəli mətbuat orqanı olan "Kommunist" qəzetinin dərc etdiyi materialların sayı az qala bütün mətbuat orqanlarında dərc edilənlərin yarısı qədər olmuşdur. Bu təqribən qəzetin hər 3 sayından birində bu mühüm mövzu haqqında məlumat deməkdir. Göründüyü kimi qəzet əlifba islahatının həyata keçirilməsində, Şərq xalqları və Türkoloji qurultayların keçirilməsində informasiya təbliğat ruporu olmuşdu. Elmlər Akademiyasının, ədəbi-bədii təşkilatların hələ yeni-yeni formalaşmağa başladığı o illərdə "Kommunist" qəzetinin redaksiyası milli elmi-mədəni qüvvələri öz ətrafında toplayan başlıca mənəvi mərkəz idi.

**3. Türk ziyalılarının Azərbaycandakı fəaliyyəti**

Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli fəaliyyəti tarixin önəmli səhifələrindən oldu. 1918-1920-ci illərdə respublikada demokratik hüquq və azadlıqların bərqərar olması, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquqların verilməsi, Şərqdə ilk dəfə qadınların seçki hüququnun tanınması, milli pulun dövriyyəyə buraxılması, ordunun, parlamentin, təhlükəsizlik strukturlarının formalaşdırılması, mətbuatın inkişafı kimi tarixi reallıqları bunu təsdiq etdi. Ola bilsin ki, bu önəmli məsələlərin təsiri idi ki, sovet rejimi bu demokratik ənənələrdən qaynaqlanan ideallarla mübarizəsinə xeyli vaxt ayırsa da ondan uzun illər belə qurtula bilməmişdir.

İyirminci illərin mətbuatında diqqəti cəlb edən bir fakt da təhsil sisteminə Türkiyədən cəlb olunan kadrlarla əlaqəlidir. Tədqiqatçı alim Əli Şamil yazır ki, "Azərbaycan Xalq Cümhuriyyəti dövründə təhsilə xüsusi diqqət yetirilir. Yeni məktəblər, universitetlər açılır. Amma müəllim kadrlar çox az idi. Buna görə də, Azərbaycan hakimiyyəti Osmanlı dövlətinə yardımı üçün müraciət edir. Osmanlı dövlətindən Azərbaycana göndərilən müəllimlər 1919-cu ilin payızında işə başladı" (Şamil,2016:19). Maraqlıdır ki, bolşeviklər Azərbaycanı işğal etdikdən sonra da Osmanlı İmperatorluğundan müəllimlərin Azərbaycanı gəlməsi davam etdirilmiş, ADR dövründə imzalanmış müqavilənin davamı kimi daha 10 nəfər müəllim də Azərbaycanın təhsil ocaqlarında müəllimlik etmişdir. Tədqiqatçı professor Ədalət Tahirzadə Azərbaycan Respublikası Dövlət Arxivinin 51-ci və 57-ci Fondunda müəyyən edilmiş və Azərbaycanda müəllimlik etmiş Osmanlı dövlətindən gələn 21 nəfərin və bolşeviklər Azərbaycanı işğal etdikdən sonra gələn 10 nəfər müəllimin də siyahısını təqdim edir. Siyahıda bu müəllimlərin adı, soyadı və harada işlədiyi barədə məlumatlar verilmişdi (Şamil,2016:24).

Bu siyahıda sonralar nəinki Türkiyədə, hətta bütün dünyada tanınan çox məşhur insanların adları var. Azərbaycandan getdikdən sonra təhsilini davam etdirən, daxili tibb və rentgen mütəxəssisi, riyaziyyatçı, fizik, dil ekspert, estetik, şair, rəssam... kimi məşhurlaşan, uzun müddət Amerikada çalışan Rəsid Sürəyya Gürsey (1889-1962) Bakı Seminariyasında müəllim olmuşdur. Onun Bakıda ailə qurduğu Rəmziyə Hisar (1902-1992) Fransanın məşhur Sorbon Universitetini bitirən ilk türk qadın və Türkiyə Respublikanın ilk qadın kimyaçısı olmuşdur. Canlarını sovet represisindan qurtararaq Türkiyəyə qayıtmışlar. Məşhür cütlük dünya şöhrətli fizik Feza Gursey və Beynəlxalq Psixiatriya Assosiasiyasının yeganə Türk üzvü psixiatr Deha xanımın ata-anasıdırlar.

Məşhur türk yazıçısı, iqtisadçısı və tarixçisi Şövkət Sürəyya Aydəmir (1897-1976) də Nuxada (indi Şəki) müəllimlik etmişdir. O, burada 1919-1920-ci illərdə ermənilərə qarşı qurulan könüllü birliyin komandiri olur. 1920-ci ilin sentyabrında Şərq Xalqları Qurultayında iştirakdan sonra kommunizm ideyalarına yiyələnir, kommunist partiyası sıralarına qəbul edilir. 1923-cü ildə Türkiyəyə dönür. "İnqılab və kadro ", "Lenin ve Leninizm", "Dünya iqtisadiyyatında Türkiyə", "Tək Adam (Mustafa Kemal)", "İkinci Adam (İsmət İnönü)", "Makedonyadan Orta Asyaya-Ənvər Paşa", "Su axtaran adam",

"Menderesin Dramı", "Toprak oyanırsa", "Qəhrəmanlar doğulmalıydı" və sair məşhur əsərlərin müəllifidir.

Əslində sovetlərin ilk illərində xaricdən dəvət olunan müəllimlərin fəaliyyətində də məqsəd təkcə kadr boğluğunu doldurmaq yox, həm də başqa səbəblərdən də qaynaqlanırdı. "Azərbaycan Sovet Sosialist Respublikasının yüksək vəzifəli şəxsləri də kadr çatışmazlığı səbəbindən milli hökumətin yolu ilə getməli oldular və gənc Türkiyə Cümhuriyyətindən kadrlar dəvət etdilər. Bu kadrların xarici ölkələrdən dəvət edilməsinə sovet rəsmiləri arasında ikili baxış var idi. Bəzi yüksək səviyyəli sovet bürokratları elə bilirdilər ki, xarici ölkələrdən gələn kadrlar geri qayıdarkən Sovet İttifaqında kommunizm, marksizm-leninizm ideologiyasını öyrənib öz ölkələrində də tətbiq edəcəklər (Şamil,2016:21). Amma KQB arxivlərində bu yanaşma tam başqa cür qiymətləndirilmişdi: "Azərbaycana dəvət olunan türklər ziyalılar və gənclər arasında təbliğat aparır, istiqlal ideyalarını daha da gücləndirir və onları bu yolda mübarizəyə dəvət edirlər" (Qasımov,1998:74).

Dövrün mətbuat orqanlarında bu fədakar insanların fəaliyyətlərini əks etdirən onlarca məqalə və materiallar da sübut edir ki, tutduqları vəzifələrindən asılı olmayaraq onlar Azərbaycanı heç vaxt doğulub, boya-başa çatdıqları məmləkətlərindən ayırmamış, özlərini də burada qərib hiss etməmişlər. Hətta xidmətlərini belə ayrı-ayrılıqda Türkiyəyə, Azərbaycana xidmət kimi yox, millətə, böyük Turana xidmət kimi dəyərləndirmişlər. Amma təəsüflər olsun ki, Azərbaycanın təhsil sistemində çalışan və bu sistemə böyük töhfələr verən bu təhsil fədailərinin də həyat və taleləri keşməkeşli olmuşdur. Onların bəziləri sövet repressiyasının amansız çaynaqlarından çanlarını qurtarıb doğma məmləkətlərinə-Türkiyəyə dönə bilsələr də, bəziləri bu repressiyanın qurbanları olmuşlar.

**4. Aparıcı bolşevik nəşrində milli təəssübkeşlik**

Dövrün çox populyar mətbuat orqanlarında, o cümlədən "Kommunist" qəzetində dərc edilən məqalə və xəbərlərdə türkçülüyə qarşı böyük bir qısqançlıq meyllərinin sezilməsinə baxmayaraq, Türkiyə və türkçülük ideyalarının təbliği haqqında yazıların da kifayət qədər çox və əhatəli olması diqqəti cəlb edir. Onda "Kommunist" qəzeti sıradan bir qəzet yox, qısa müddət ərzində bütün Cənubi Qafqazın aparıcı dövri nəşrlərindən birinə çevrilmiş, SSRİ-nin iri şəhərlərində və bir sıra xarici ölkələrdə xüsusi müxbirləri var idi.

Ikinci müstəqilliyimizi qazananda bəzi qüvvələrin mətbuata ciddi qınaqları, o cümlədən sovet rejimini dəstəkləmək kimi tarixi reallıqları dəyərləndirməkdən uzaq olan ciddi və haqqsız iradları ortaya çıxdı. Hətta cəmiiyyətdə bu kimi zərərli fikirlər bəzi yüksək tribunalardan eşidildi. Amma unudulmamalıydı ki, "Öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan "Kommunist" kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Bu qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, xalq kütlələrinə müsbət təsir göstərmiş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun vəsaiti ilə nəşr olunurdu, amma bununla belə o milli təəssübkeşliyini heç vaxt unutmamış və həmişə bunun cəzasını çəkmişdir" (Həsənov,2015:Xalq qəzeti).

Başqa bir müəllifin yazdığı kimi ""Kommunist" təkcə qəzet deyil, milli jurnalistikamızın avanqardı idi. O, ictimai fikri formalaşdıran, Azərbaycan dilinin və mədəniyyətinin keşiyində dayanan, tariximizi təbliğ edən, mənəviyyatımızı yad təsirlərdən qoruyan müqəddəs bir ocaq, ciddi bir mərkəz idi. Sovet rejimi dağılanda, haqlı olaraq, "Kommunist"in adını "Xalq qəzeti" qoydular. Çünki bu nəşr həqiqətən, xalqın qəzeti olmağa çalışıb. "Kommunist"lik əksər hallarda qəzetin yalnız adında olub. 1919-cu ildən

üzü bəri bu qəzetdə yüzlərlə, minlərlə yazı dərc edilib ki, onlar bu gün də uğurlu jurnalist materialı kimi gənc müəlliflərə nümunə ola bilər (Süleymanzadə,2009: Xalq qəzeti).

Gizlədilməsi mümkün deyil ki, milli ruhun dirçəldilməsi və qorunmasını təbliğ edən məqalələrin qəzet səhifəsində görünməsi həm də müntəzəm bir xarakter almışdı. Bəzi ümdə misalların haqqında danışmaq da olar: 1922-ci il martın 2-də "Kommunist" qəzetində Azərbaycanın sərvətlərinin Rusiyaya daşınıb aparılması və əvvəllər bunun müqabilində Bakıya ərzaq adı altında boş vaqonlar gətirilməsi barədə böyük müzakirə və mübahisələrə səbəb olan bir yazı dərc edilib. "Yoxsul" imzası ilə təqdin olunan bu məqalənin müəllifi Xalq Daxili İşlər Komissarı vəzifəsində çalışan Həmid Sultanov idi (Yoxsul,1922:Kommunist). Arxiv sənədləri əsasında hazırlan məqalədə 1912-ci ildən 1922-ci ilə qədər Azərbaycandan Rusiyaya göndərilən məhsullar haqqında məlumatlar yer alır. Bunun əvəzində isə Rusiyadan Azərbaycana ərzaq məhsulları göndərilir, amma qapısı möhürlü olan bu vaqonlar boş olurmuş. Müəllif yazısında ümidlə elan edirdi ki, bu kimi işlərə son qoyulacaq, sovet hakimiyyəti bu cür saxtakarlıqların qarşısını alacaq, bu kimi hallar aradan qaldırılacaqdır. Sonrakı gün – martın 3-də Azərbaycan K(b)P MK-nın Siyasi Bürosunun xüsusi iclasının qərarı ilə Həmid Sultanov tutduğu vəzifədən azad edildi. Yaxud ali təhsilin milliləşdirilməsi mülahizələri ilə çıxış etmiş müsavatçı-publisist Mirzəbala Məmmədzadənin yazıları qəzetin bir neçə nömrəsində dərc edilmişdi. Bu o demək idi ki, mətbuat nə qədər rejimin təbliğatçısı olsa belə milli dünyagörüşün formalaşmasında da əvəzsiz rolunu ortaya qoya bilmışdir.

O ayrı bir məsələdir ki, "Kommunist" qəzetinin milli təmayülünü Sergey Kirov, Levon Mirzoyan kimi yad və düşmən simaların rəhbərlik etdikləri, çox ziddiyyətli bir şəxs olan Əliheydər Qarayev kimi milli hisslərdən məhrum yerli rəhbər kadrların fikir və mülahizələri əsasında Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi daim nəzarət altında saxlamış, yeri gəldikcə müəlliflər "millətçilik", "türkçülük" adı ilə təqib edilmişlər. Faktlar var ki, "Kommunist" qəzetindəki "millətçilik yuvası"nı dağıtmaq üçün dəfələrlə çox yüksək səviyyədə ciddi tədbirlər həyata keçirilmişdir (Məhərrəmov,2009:88; Həsənov,2015:Xalq qəzeti).

1924-cü ilin 18 aprelində Mərkəzi Komitənin ikinci katibi, 27 yaşlı gənc vətənpərvər Eyyub Xanbudaqov "Kommunist" qəzetində "Milli məsələyə dair" məqalə ilə çıxış edərək partiyanın milli siyasətinin yerinə yetirilməməsini ciddi tənqid edir, milli kadrların hazırlanmasının qarşısının alındığını, yerli kadrların vəzifəyə təyinatında ayrı-seçkiliyə yol verildiyini bildirir (Xanbudaqov,1924: Kommunist). Məqalə aprelin 27-də Bakı Partiya Komitəsinin növbəti konfransında müzakirə edilir. Xanbudaqov cəzalandırılır və Əliheydər Qarayevə tapşırılır ki, "Kommunist" qəzetində kök salmış millətçilər, sovet hakimiyyətinin düşmənləri aşkar edilərək ifşa olunsunlar. Nəticədə qəzetin redaksiyasında çalışan milli ruhlu, türkçülük ideyalarının təbliğatçısı olan görkəmli ziyalılar – Əbdürrəhim bəy Haqverdiyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kirmanşahlı Əliheydər Qarayevin təkidi ilə xırda burjuaziyanın əlaltısı adlandırılır, bir qismi işdən qovulur, bir qismini isə ciddi tənbehlərə məruz qalırlar. Bu kimi faktların sayı isə olduqca yetərincədir

Yeri gəlmişkən qeyd edilməlidir ki, dövrün mətbuat orqanlarını, eləcə də "Kommunist" qəzetini vərəqlədikcə cox aydın bir şəkildə görünür ki, "Qəzet əlifba islahatının həyata keçirilməsində, Şərq Xalqları və Türkoloji qurultayların keçirilməsində informasiya-təbliğat ruporu olmuşdu. Qəzet, eyni zamanda, milli jurnalist kadrları yetişdirən, yönləndirən yaradıcılıq məktəbi idi. Ümumiyyətlə, uzun onilliklər boyu "Kommunist" qəzeti respublikanın ən yaxşı jurnalistlərinin qüvvəsi, təəssübkeş ziyalıların fəal iştirakı ilə nəşr edilib. Onun ideya-siyasi və peşəkarlıq səviyyəsi sahə və bölgə dövri

nəşrləri üçün örnək kimi qəbul olunub. Qəzetin həyatındakı bir sıra yeniliklər, milli mətbuatımızın ümumi tarixinə önəmli fakt və hadisələr kimi daxildir" (Həsənov,2015:Xalq qəzeti).

Ümumiyyətlə, Moskva nəşrləri sayılan mərkəzi mətbuat orqanları da Birinci Türkoloji Qurultayın keçirilməsi, hətta türk xalqlarının latın əlifbasına keçməsi barədə qərarını çox böyük bir canfaşanlıqla yaymışdı. Bu məqalə və materiallar qurultayın işini, məqsəd və məramını açıqlayan sənədlər kimi də böyük dəyərə malikdirlər. Qurultayda keçmiş Sovetlər Birliyində yaşayan türkdilli xalqların, Avropa türkologiyasının nümayəndələrinin təmsil olunması, Türkiyə və İrandan dəvət edilmiş ziyalılarının iştirakının təmin edilməsi türkoloji mühitin nə qədər geniş olduğunu aydın şəkildə ortaya qoyur. Böyük türk dünyasının və türkologiya elminin Əlibəy Hüseynzadə, Mehmet Fuad Köprülüzadə, Vasili Bartold, Hənifə Zeynallı, Bəkir Çobanzadə və onlarca bu kimi nəhənglərinin məqalə və müsahibələrinin təqdim olunduğu (Ağamalıoğlu,1925; Ağamalıoğlu,1926; Bartold, 1925; Çobanzadə,1925; N.N.,1925; Professor Köpürlüzadə ilə müsahibə,1925) "Kommunist" qəzetinin o dönəmdə nəşr olunmuş nüsxələri Türkiyə-Sovet dostluğuna inam yaratdığı kimi, həm də Türkiyə ilə münasibətlərin böyük və uğurlu gələcəyini təlqin etməkdə, buna inam yaratmaqda idi. Təəssüf ki, sonralar məlum oldu ki, Türkiyəni kommunist yoluna gətirmək planının mühüm bir hissəsi də bu qurultayla bağlı imiş. "... çəkişmələr, qırğınlar, aclıq, səfalət, özbaşınalığın tüğyan etdiyi bir dövrdə qurultayın çağrılması nə qədər düzgün idi? Türk xalqlarına olan bu isti münasibət, canıyananlıq, sevgi nədən irəli gəlirdi? İlk öncə türk xalqlarına olan bu səmimiyyət bizə elə gəlir ki, Sovet hökumətinin daxili və xarici siyasətindən irəli gəlirdi. Bu hökumət dünyaya nümayiş etdirmək istəyirdi ki, Rus imperiyasının qurduğu dövlət azadlıq, bərabərlik, qardaşlıq simvoludur (Məhərrəmov,2009:109). SSRİ-nin məkrli planının iflasa uğraması repressiyaların başlanması ilə nəticələndi, o cümlədən "...100-dən artıq iştirakçısının, seçmə alim və mütəfəkkirinin əksəriyyətinin həbsi və fiziki məhvi ilə bitən bu qurultay yaxın tarixin ən böyük ziyalı-alim soyqırım sənədidir, 30-cu illərin Sovet-Stalin diktatura rejiminin tarixi üçün ittihamdır" (Nərimanoğlu, 2006:44).

Bütün bunlara baxmayaraq "...dünya elminin, xüsusən də türk dünyasının böyük elmi hadisəsi olan Birinci Bakı Türkoloji Qurultayı həm tarix kimi, həm də müasirlik baxımından mühüm əhəmiyyətə malikdir. 1926-cı ilin 26 fevralından 6 martına kimi Bakı şəhərində keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının elmi-mədəni birliyinə, ortaq milli-mənəvi dəyərlərinin inkişaf etdirilməsinə, inteqrasiya proseslərinin dərinləşdirilməsinə geniş üfüqlər açan ictimai hadisədir" (Həbibbəyli,2016: Azərbaycan).

Azərbaycan Prezidenti İlham Əliyevin Birinci Türkoloji qurultayın 80 illiyi ilə bağlı 9 noyabr 2005-ci il tarixli, 90 illik yubileyinin keçirilməsi haqqında 18 fevral 2016-cı il tarixli sərəncamları da (Azərbaycan Prezidenti İlham Əliyev,2005: Xalq qəzeti; Azərbaycan Prezidenti İlham Əliyev,2016: Xalq qəzeti) qurultayın türk xalqlarının həyatında necə böyük tarixi əhəmiyyət daşıdığını bir daha təsdiq edir. Dövlət başçısı tərəfindən imzalanmış hər iki sərəncam bu gün türkdilli respublikalar arasında elmi-mədəni əlaqələrin inkişaf etdirilməsində mühüm əhəmiyyətə malik olmuşdur.

## NƏTİCƏ

Dövrün qəzetdlərində, o cümlədən "Kommunist" qəzetində dərc edilən coxsayli məqalələrdə milli dünyagörüşün qorunması, qəzetdə çalışan ziyalıların milli varlığa bağlılığı, mətbuatın milli-xəlqi istiqamətinin qorunub saxlanması kimi ciddi cəhdlər açıq-aydın özünü biruzə vermişdir. Eyni zamanda rejimin dayaqlarının daha da möhkəmlənən təməllər üzərində inkişafı təbii ki, ciddi ideoloji qarşıdurmalara əsas yaradır və cəmiyyəti represiyaya doğru aparmaqda idi.

Mətbuat tədqiqatçılarının araşdırmaları ilə tanış olanda AXC dövrü və Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu illərə kimi mətbuat tariximizin daha geniş və əhatəli araşdırıldığının şahidi oluruq. Sovet dövründə buna geniş imkan verilməsə də, müxtəlif vasitələrlə, eyni zamanda tədqiqatçı fədakarlığı ilə mətbuat tariximizin bu dövrü də öyrənilmiş və bu ənənə davam etdirilməkdədir. Müstəqilliyimizin yeni dövründə bu işlər daha da geniş vüsət almış, eləcə də mühacirət jurnalistikası tarixinin araşdırılması önəmli tədqiqatlardan olmuşdur. Amma sovet dövrü mətbuat tarixinin tədqiqatı və bu sahədə təqdim edilən əsərlərin sayı barmaqla sayılacaq qədər azdır. Əslində, ortaya qoyulan tədqiqatların böyük qismi Sovet dövrünün payına düşdüyündən ideoloji baxışlar üstünlük təşkil edir.

İndiki dövrdə Azərbaycan sovet mətbuatının cəmiyyət qarşısında xidmətlərini “rejimin xidmətçisi və təbliğatçısı” adlandırmamaq mümkün olmadığı kimi, onu tam şəkildə bu cür təqdim etmək də haqsızlıq olardı. Bu baxımdan, Azərbaycan sovet mətbuatı tarixinin, o cümlədən dövri nəşrlərin öyrənilməsi önəmli olmalıdır. Təqdim olunan məqalədə sovetlərin ilk illərində Azərbaycan–Türkiyə münasibətlərinin az bir hissəsinin araşdırılmasına cəhd edilmiş və burada da, ancaq “Kommunist” qəzetinin dərc etdiyi materiallar tədqiqat obyekti olmuşdur. Bu araşdırmalardan sonra ortaya qoyulan qənaət belədir: uzun illər boyu Azərbaycan KP MK-nın, Azərbaycan SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı kimi nəşr edilmiş “Kommunist”, təkcə “rejimin xidmətçisi” yox, həm də xalqımızın uğurlarla, hədsiz çətinliklər və faciələrlə müşayiət edilən həyat yolunun əks olunduğu tarixi güzgü olmuşdur.

**KAYNAKÇA**

Ağamalıoğlu, S., (1925, 9 noyabr). Türkoloji qurultay bizə nə verə bilər? /Türkoloji qurultay ərəfəsində.Kommunist, s.4.

Ağamalıoğlu, S., (1926, 28 fevral) Birinci Türkoloji qurultayın açılışı münasibəti ilə təbriknitqi. Kommunist, s.5.

Агамалиоглы, С.,(1925,25 января).Ленин и Восток.Бакинский рабочий.

Arikan, S., Çelebi, E., (2016, 12-14 Mayıs). Türkiye ve Azerbaycan arasinda imzalanan uluslararasi anlaşmalar. I.Millətlərarası Türkiye-Azerbaycan münasibetleri sempozyümü, s.416-429.

Bağırlı,A., (Kastamonu: 2016). Sovetlər dönəmində Türkiyə-Azərbaycan ədəbi əlaqələri. I.Millətlərarası Türkiye-Azerbaycan münasibetleri sempozyümü, s.279-282.

Bartold, V., (1925, 9 noyabr).Türkoloji qurultay münasibətilə /Qurultayın Bakıda keçirilməsi haqqında.Kommunist,s.4.

Birinci Türkoloji Qurultayın 80 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı. (9 noyabr 2005). Xalq qəzeti.

Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı. (18 fevral 2016). Xalq qəzeti.

Çobanzadə, B., (1925.9 noyabr). Türkoloji qurultayı:Türkoloji qurultayın gündəliyində duran məsələlər haqqında. Kommunist, s.4.

Həbibbəyli, İ., (2016, 13 Noyabr). Birinci Türkoloji Qurultayın dərsləri və müasir çağırışlar. Azərbaycan.

Həsənov, H., (2015, 29 avqust). Azərbaycanın milli maraqlarına və dövlətçilik məfkurəsinə sədaqətlə xidmət etmiş mətbuat orqanı.Xalq qəzeti.

Xanbudaqov, E., (1924, 7 aprel). Milli məsələyə dair. Kommunist, № 79, s.3.

İsmail, H.,(1921, 09 ekim - 1337, 9 Teşrin-i evvel). Kardaş Hükumetin Sefiri, Açıq söz (Açıksöz) qəzeti, sayı:304,s.1.

Коммунистический интернационал, (1920). М., №12, стр.259-262.

Qasimov, C., (1998). Repressiyadan deportasiyaya doğru, Mütərcim nəşriyyatı,

Quliyev, C., (1960). Şərq xalqlarının I qurultayının 40 illiyi. Azərbaycan kommunisti,№ 9.

Məhərrəmov,Ə., Məhərrəmli,A., (2009). Xalq qəzetinin (Kommunist) yaranması və inkişafı tarixindən.Nəşrinin 90 illiyi. Elm və təhsil, 88 c.

Nərimanoğlu, K. V., (2006). 1926-cı il Bakı Türkoloji Qurultayı haqqında söz. Latın əsaslı yeni türk əlifbası və Birinci Bakı Türkoloji Qurultayı, biblоqrafiya. s.44.

Nəzərli, Ş. (1995). Cümhuriyyet generalları, Hərb nəşriyyatı, Bakı.

N.N., (1925, 9 noyabr). Türkoloji qurultayın təşkili: Türkoloji qurultayın keçirilməsi üçün təşkilat komisiyasının görəcəyi işlər haqqında. Kommunist, s.4.

Professor Köpürlüzadə ilə müsahibə, (1926,25 fevral).Türkoloji işlərin Türkiyyədəki əhəmiyyəti və onunla əlaqədar görülən işlər haqqında. Kommunist, s.3.

Yoxsul., (1922, 3 mart). Kommunist, № 68, s.3.

Şamil,Ə.,(12-14 Mayıs 2016).KGB arşivin'de Türkiye'den Azerbaycan'a davet edilmiş aydınlar haqqında belgeler. I.Millətlərarası Türkiye-Azerbaycan münasibetleri sempozyümü. s.17-26.

Şimşir, B., (2013). Ankara'da Açılan İlk Azerbaycan Temsilciliği, İrs: Miras, Sayı:7, s.32. (http://irsaz.com/new/pdf/201312/1386944848824816094.pdf).

Süleymanzadə, M.,(2009, 3 sentyabr). Milli jurnalistikamızın avanqardı.Xalq qəzeti.

# YÖNETİMDE VİZYONER LİDERLİK TARZI VE ATATÜRK'ÜN VİZYONER LİDER ÖZELLİKLERİNİN MİLLİ EGEMENLİĞİN KAZANILMASINDAKİ ROLÜ

***Nurettin GÜRCAN***

*Doktora Öğrencisi, Ege Üniversitesi*

*ORCID NO: 0000-0002-5361-4351*

## ÖZET

Yönetim yazınındaki liderlik çalışmalarının günümüzde geldiği noktada önemli liderlik tarzlarından birini vizyoner liderlik tarzı oluşturmaktadır. Bu çalışmada, yönetsel anlayışlar içerisinde önemli bir yeri olan vizyoner liderlik konusu Atatürk'ün liderlik tarzı ile ilişkisi bakımından ele alınmıştır. Çalışmada, ilgili yazında yer verilen vizyoner liderlik kavramsallaştırmaları, vizyoner liderliğin boyutları ve vizyoner liderliğin üç temel boyutu üzerinden incelemeler yapılmıştır. Söz konusu liderlik tarzını anlamlandırmaya yönelik kuramsal açıklamaların ardından, bu liderlik tarzının Atatürk'ün liderliğindeki yeri açıklanmaya çalışılmıştır. Bu bağlamda, vizyoner liderliğin öncülleri ve Atatürk'ün liderlik tarzında vizyonerliğin yeri üzerinde durulmuştur. Çalışmaya dair son başlık içerisinde ise Atatür'ün vizyoner lider özellikleri inceleme konusu edilmiş ve bu özelliklerin Türkiye Cumhuriyeti'nin kuruluşuyla gelen milli egemenliğin kazanılmasındaki rolü ve önemine değinilmiştir.

**Anahtar Kelimeler:** Yönetim, Liderlik, Vizyoner Liderlik, Atatürk

## ABSTRACT

At the point where the leadership studies in the management literature have reached today, one of the important leadership styles is the visionary leadership style. In this study, the subject of visionary leadership, which has an important place in managerial understanding, is discussed in terms of its relationship with Atatürk's leadership style. In the study, the conceptualizations of visionary leadership in the related literature, the dimensions of visionary leadership and the three basic dimensions of visionary leadership were examined. After the theoretical explanations to make sense of the said leadership style, the place of this leadership style in Atatürk's leadership has been tried to be explained. In this context, the antecedents of visionary leadership and the place of visionary in Atatürk's leadership style are emphasized. In the last title of the study, Atatürk's visionary leader features were examined and the role and importance of these features in the acquisition of national sovereignty that came with the establishment of the Republic of Turkey was mentioned.

**Keywords:** Management, Leadership, Visionary Leadership, Atatürk

## GİRİŞ

Yönetim ve örgüt yazınında gelişen post modern anlayışla birlikte birçok farklı liderlik tarzı ortaya çıkmıştır. Bu dönemle birlikte değişen ve dönüşen liderlik davranışlarının işaret ettiği önemli bir yönetim davranışı da vizyoner liderlik tarzı adıyla öne çıkmıştır. Yöneticinin veya liderin ortaya konulan vizyona dayalı ve geleceğe yönelik davranışlar göstermesi şeklinde ifade edilebilen vizyoner liderlik tarzı günümüzün önemli bir yönetim anlayışı olarak değerlendirilmektedir. Türk yönetim tarihinde vizyoner yönetim ve liderlik tarzıyla öne çıkan kişiler incelendiğinde Atatürk öne çıkmaktadır. Türkiye Cumhuriyeti'nin kurucu lideri olan Mustafa Kemal Atatürk, ortaya koyduğu vizyonla Osmanlı Devleti'nden Türkiye Cumhuriyeti'ne dönüşümün en önemli itici güçlerinden biri olmuştur. Gerek kurtuluş mücadelesi döneminde ortaya konulan inançlı tavır gerekse yeni ülkenin kuruluşundaki özgüvenli ve kararlı tutum Atatürk'ün ileri görüşlü ve vizyoner lider duruşunun temsilleri olmuştur. O, milletinin varoluş mücadelesinde geleceği inşa etmek adına vizyoner düşünen, eylem odaklı olan, değişimlere açık davranan ve geleceğin resmini ortaya koyan bir vizyoner yönetim örneği sergilemiştir.

Ülkenin ve Türk milletinin varoluşunda önemli bir yeri olan Atatürk, öncelikle yolu görmüş, yolda yürümüş ve ardından yol olmuş bir vizyoner liderdir. Tüm bu yönleriyle ve farklı liderlik tarzlarında işlenen çeşitli nitelikleriyle Atatürk'ün liderliği farklı liderlik yaklaşımlarının bir arada sergilendiği bir bütünsellik taşımaktadır. Bu araştırmada ise Atatürk'ün liderliğinin vizyoner tarafı üzerinde durulmakta ve bu tarz liderliğin gerek kendi liderlik anlayışında gerekse milli egemenliğin kazanılmasındaki rolü inceleme konusu edilmektedir.

## 1. VİZYONER LİDERLİK KAVRAMI

Vizyoner liderlik, bir örgütün çalışmasına anlam ve amaç sağlayan net vizyonlar yaratma ve ifade etme yeteneği olarak tanımlanmaktadır. Vizyoner liderler, kendi kişisel vizyonlarını geliştirir ve ardından bunu meslektaşlarıyla ortak bir vizyonda birleştirirler. Burada vizyonun iletilmesi, insanlara harekete geçme gücü veren şeydir. İnsanlar harekete geçirilemediğinde ise bunun nedeni genellikle vizyonun açıkça iletilmemesi olarak görülür (Taylor, Cornelius ve Colvin, 2014: 567). Vizyon sahip bir lider, örgüt için yapılanlarla, ileride yapılması gerekenler arasında köprü kurar ve izleyenleriyle bir gelecek hayalini paylaşır, bu hayal doğrultusunda izleyenlerini nasıl motive edeceğine ve hedeflere nasıl ulaşılacağına odaklanmaktadır (Derin, Demirtaş ve Baynal Doğan, 2020: 552). Bir diğer deyişle vizyoner liderlik; vizyon (fikir), iletişim (söz) ve yetkilendirme (eylem) gibi belirli adımları içerisinde barındıran bir süreç olarak kabul edilmektedir (Westley ve Mintzberg, 1989: 18).

Vizyoner liderlik, örgütün bütünü veya bir kısmı için gerçekçi, güvenilir, çekici bir gelecek vizyonu yaratabilme ve ifade edebilme kabiliyeti olarak da tanımlanır. Vizyoner liderler, vizyon oluşturabilmenin yanı sıra bu vizyonu çalışanlarına açıklayabilme yeteneğine de sahip olan kişidir. Burada gidilecek yolun, varılacak hedeflerin tanımlanması ve bunların çalışanlara açık, sözlü ve yazılı bir iletişimle aktarılması gereklidir. Ayrıca vizyoner bir lider, vizyonu sadece sözlü iletişimle aktarmaz, bu vizyonu davranışlarıyla da çalışanlarına yansıtmaya çaba gösterir. Bu bakımdan günümüz yöneticilerinin, örgütü başarıya sevk edecek bir vizyon oluşturması, vizyona giden yolda güçlü stratejiler geliştirmesi ve tehditleri fırsatlara dönüştüren proaktif bir yaklaşım ile başarıyı elde etme yolunda hızlı bir şekilde ilerlemesi önemlidir. Bunlara ek olarak yenilik ve değişimleri yakından izleyerek, eğitimin gereğine inanmaları ve öğrenen bir örgüt oluşturmaları gerekir. Ayrıca bu tarz liderlerin çalışanlarına ilham vermesi ve onlara yetki devrederek onları sürece dahil etmesi de önemli görülmektedir (Tekin ve Ehtiyar, 2011: 4010).

Vizyoner liderlik, örgütün misyon ve vizyonunun geliştirilmesi anlamına gelmektedir. Vizyoner liderlik, izleyenlerin ilerleme gösterebilmesi için yol açıp onları yönlendirebilmeye ve ihtimalleri değerlendirebilmeye karşılık gelmektedir. Söz konusu olasılıkları görebilen liderler, işini bilen, pazar ve çevresindeki imkanlara ulaşabilen, yeni fikir ve planlar sunmaları için astlarını harekete geçirebilen, hitap ettiği kitleyi iyi tanıyan ve bir davranışın ortaya konması için birçok şeyi yapabilme konusunda gücü olan kişilerdir (Aydın ve Karaman, 2022: 267). Bu yönleriyle vizyoner lider, hem tanımı hem özellikleri itibariyle geçmiş ve bugünden ve geçmişten çok gelecek ile ilgili olan ve sürekli iyileştirmeyi önemseyen kişilerdir (Uygun ve Bulut, 2019: 672).

Vizyoner liderler hayal dünyasında yaşamanın aksine içerisinde bulunduğu gerçekliğin farkında olan ve buna göre gelecekle ilgili planları yapabilen kimselerdir. Ayrıca bu tarz liderler vizyon ortaya koyan ve aktaran kişi olmanın yanı sıra vizyonu gerçekleştirmeye giden yolda ortaya çıkan olumsuzlukları çözebilen kişiler olarak tanımlanır (Aydoğan ve Bilgivar, 2022: 1736). Vizyoner liderlik yaklaşımı; vizyoner düşünce, eylem odaklı olma, geleceğin resmi ve değişikliklere açık olma şeklinde 4 alt boyut ile açıklanır (Çınar ve Kaban, 2012: 200). Bu boyutlar ise aşağıdaki gibi açıklanmaktadır (Özeroğlu ve Koçyiğit, 2020: 15):

- Vizyoner düşünce: Vizyoner lider izlenilecek yolu, ulaşılacak hedefleri tanımlamalı ve vizyonu çalışanlara açık, sözlü ve yazılı iletişim yoluyla aktarmalıdır.
- Eylem odaklı olmak: Vizyoner liderler; yetki devri yaparak, astlarına bazı sorumluluklar vererek, planlama sürecine onları da dahil ederek, vizyonu örgütün bütününe yayarak çalışanların vizyonu sahiplenmelerini sağlayarak beklenen performansın üzerinde bir performans sağlarlar.

- Değişimlere açık olmak: Vizyoner liderler, izleyenlerin birbirleri ile ve çevreleriyle olan ilişkileri sonucunda ulaştıkları genel düşüncelerini geliştirmelerine yardım eden genel durum, sosyal ihtiyaç, problemin açıklanması ve vizyonla ilgili umut veren çözümlerle ilgili anladıklarını birlikte ortaya koymaktadırlar.
- Geleceğin resmi: Vizyoner liderler tüm çalışmalarını örgütü geleceğe hazırlama doğrultusunda şekillendirirler. Gelecekte karşılaşılacak olumlu/olumsuz durumlar hakkında yeni fikirler oluşturarak, bu süreçte gerek duyulduğunda büyük ve cesaret gerektiren projeler üreterek uygulamaya koyarlar.

Yazında etkin bir yönetim için vizyoner liderliğe olan ihtiyacın üzerinde durulmaktadır (Bulut ve Uygun, 2010). Genel olarak değerlendirildiğinde, vizyon sahibi liderlerin temel özellikleri olarak şunlar sıralanmaktadır: Muhakeme ve analiz yapabilme yeteneği etkili stratejik düşünebilme kabiliyeti, ihtimallerden haberdar olmak ve zamanı yapılandırabilmek, içgüdülü, sezgili, dürüst ve adaletli olmak, zaman yönetimini çok iyi yaparak hızlı çalışabilmek, mücadeleci ve hırslı olmak, yenilikçi olmak, fikir yürütebilmek ve sentez yeteneğine sahip olmak, sürekli öğrenme eğilimini taşımak, olayları diğerlerinden farklı ve çok yönlü olarak algılayabilmek, iyi bir iletişim kurma becerisine sahip olmak, kendine güvenmek ve kendini sürekli geliştirmek, başarısızlıktan korkmadan riskleri göze alabilmek, değişimden korkmadan her değişim fırsatını bir öğrenme aracı olarak görebilmek ve son olarak da tüm bunları yaparken mütevazı olabilmek şeklinde sıralanmaktadır (Bulut ve Uygun, 2010: 34). Türk yönetim tarihinde söz konusu özelliklere sahip olarak, ortaya koyduğu vizyon ile kitleleri peşinden sürüklemeyi başarabilmiş en önemli liderlerden biri Türkiye Cumhuriyeti'nin kurucusu Mustafa Kemal Atatürk'tür. Bu bağlamda Atatürk'ün liderlik ve yönetim tarzında vizyoner liderliğin birçok yansımasını görmek mümkündür.

## 2. VİZYONER LİDERLİĞİN ÖNCÜLLERİ VE ATATÜRK'ÜN LİDERLİK TARZINDA VİZYONERLİĞİN YERİ

Liderlik konulu araştırmaların özellikle 1990'lı yılların ardından gelen süreçte vizyoner liderlik konusuna giderek daha fazla önem verdiği görülmektedir. Bunun ana dayanaklarından biri, vizyoner liderlik anlayışının örgütlerin geleceği ile ilgili belirsiz durumları gidermeye önemli katkılar sağlaması hususudur. Bu bağlamda içinde bulunduğumuz yüzyılın hızla değişiminden önemli düzeyde etkilenen örgütlerin yaşamlarını sürdürebilmeleri için, örgütleri paylaşılan bir vizyonla geleceğe taşıma kabiliyetini gösteren vizyoner liderlere ihtiyaç vardır (Gümüşeli, 2001: 538).

Örgütsel veya makro bağlamda toplumsal dönüşümlerin sağlanması için önemli ölçüde yönetimin bu süreçte göstereceği liderlik davranışlarının etkinliğine ve liderin geleceğe ilişkin öngörülerine bağlı hale gelmektedir. Bu durumda belirsizliğin hakim olduğu zamanlarda vizyonu belirleyen ve onun kitleleri sürükleyecek şekilde benimsenmesini sağlayan vizyoner liderlere ihtiyaç daha da artmaktadır. Vizyoner liderliğe dair üç temel rolden söz edilmektedir. Bunlar; yolu görmek, yolda yürümek ve yol olmak şeklinde sıralanmaktadır (Çelik, 1997: 472).

Vizyoner liderlik açısından ilk önemli nokta yolu görmektir. Yol, vizyonun gelecekteki görüntüsünü ifade eder. Bu anlamda ulaşılması gereken hedeftir. Vizyoner lider, farklı yollar içerisinden en uygun olan yolu keşfedebilmelidir. Geleceğe dair projesi ve tasarımı olan yöneticilerin yolu görmekle ilgili endişesi ve arayışı olabilir. Aksi durumda geleceği hayal etmeyen, projesiz ve plansız bir yönetici için yolu görmek bir yana "bir arpa boyu ilerisini görmek" de mümkün olmayacaktır. Çünkü vizyoner liderlik gelecekle ilgili olarak duygusal ve entellektüel bir sancıyı gerektirmektedir. Vizyoner liderler, entellektüel ve duygusal bakımdan geleceğin ufkunu açan liderlerdir. Bu liderlik tarzında yolu görmek sezgisel bir gücü gerektirir. Bu tarz liderler düşünce ve sezgi gücüyle geleceğin bilinmez dünyasının perdesini aralarlar, geleceğe ışık tutarlar ve geleceğin haritasını çizerler. Çizilen bu harita vizyon olarak görülmekte ve izlenecek yolu belirgin hale getirmektedir (Çelik, 1997: 472). Nitekim vizyoner liderliğin yolu görmekle ilgili tüm bu öncüllerini kurtuluş mücadelesi sürecinde Atatürk'ün liderlik anlayışında görmek mümkündür. O da; ülkenin geleceğiyle ilgili bir görüntü ortaya koymuş, ulaşılması gereken hedefleri göstermiş, kitleleri en uygun yolun bu olacağına inandırmış ve kurulacak olan yeni cumhuriyetin ufkunu belirleyeceğini savunmuştur. Vizyoner bir lider olarak Atatürk, sezgilerinin gücüyle geleceğin yol haritasına ışık tutmuş ve izlenecek yolu aydınlatmıştır. Vizyoner liderliğin

rollerinden biri olarak görülen ve Atatürk'ün bir örneği teşkil ettiği diğer önemli liderlik rolü 'yolda yürümek' olarak ifade edilmektedir.

Vizyoner bir liderin izleyenlerine işaret ettiği yolda onlarla birlikte yürüyebilmesi büyük önem taşımaktadır. Bu açıdan vizyoner liderin başarısı yalnızca yolu görmekle sınırlı kalmamaktadır. Bunun ötesinde vizyoner bir lider, gördüğü yolda yürümeyi de başaran bir liderdir. Vizyoner liderlik anlayışında yolu görme çok önemlidir fakat yolda yürüme de en az yolu görme kadar önem görülür. Yolda yürüme, vizyoner lider için bir kararlılık göstergesi olarak kabul edilir. Bu bakımdan görülen yol ve yürünen yol farklı olursa vizyona ulaşılması mümkün değildir. Nitekim bazı liderler vardır ki, kendilerine bir hedef çizerler ve çizdikleri bu hedefte de yol almaya çalışırlar (Çelik, 1997: 472). Tarihimizde Atatürk de bu tarz liderlerin bir örneği niteliğindedir. Mustafa Kemal, Türk milleti için kurtuşun yolunu önce görmüş ve ardından o yolda milletiyle birlikte yürümüş bir vizyoner liderdir. Böylelikle halkıyla birlikte yürüdüğü bu yolun ne kadar meşru ve haklı bir yol olduğunu tüm dünya halklarına ve devletlerine göstermiş ve ilan etmiştir. Bu yönüyle Atatürk, gördüğü yolda yürüyerek hedefe koyduğu çağdaş uluslar düzeyine ulaşma gayesinde yılmadan yürümüş bir liderdir. O'nun ileri görüşlülüğü ve vizyoner duruşu, yürüdüğü yolda halkının da ona inanarak eşlik etmesinde ve ilerleyen süreçte millet egemenliğinin kazanılmasında önemli katkılar sağlamıştır. Atatürk bu vizyoner yönetim anlayışıyla, yaşadığı dönemde ve sonrasında da izleyenleri için bir yol olmuştur. Nitekim vizyoner liderliğin üçüncü temel rolü de 'yol olmak' şeklinde ifade edilmiştir.

Vizyoner liderler, ortaya koydukları vizyonla insanları ardından sürükleyebilen kişilerdir. Bu tarz liderler oluşturdukları vizyonlarla yeni yollar açabilen kişilerdir. Dolayısıyla vizyoner lider için üçüncü önemli rol yol olmaktır. Yol olma, yol açma anlamına gelmektedir. İzleyenler, vizyoner liderin açtığı yolda yürümeye çalışmaktadırlar. Bu açıdan yol olma, ciddi bir fedakarlık gerektirmektedir. Nitekim yine de vizyoner lider kendi yaşamını ortaya koyarak bir riske girebilir ve vizyonu gerçeğe taşıyabilmek uğruna hayatını bile kaybedebilir. Vizyoner liderlikte düşünce ve sezginin bir araya gelmesiyle ortaya çıkan yol, vizyona ulaşmayı sağlamaktadır. İzleyenler, vizyoner liderin açtığı bu yolda güven içinde yürüyebilmekte ve yolun sonundaki hedefe ulaşabilmektedirler (Çelik, 1997: 473). Benzer şekilde Türk milleti de kendisine kurtarıcı olarak gördüğü Mustafa Kemal Atatürk'ün yolundan bu şekilde yürümüştür ve bağımsızlığını kazanmıştır. Bu süreçte Atatürk de ortaya koyduğu vizyonuyla insanları arkasından sürüklemeyi başarmış bir liderdir. Kurtuluş mücadelesi sürecinde halkının varoluşu için onlara yeni yollar açmış ve bu yolu inançla yürümelerini sağlamıştır. Bu yönüyle ciddi bir fedakarlığı ve sorumluluğu üstlenen Atatürk, tüm varlığını ortaya koyarak bütün riskleri göğüslemeye hiç tereddütsüz razı olmuştur. Böylelikle lider olarak onun ortaya çıkardığı yol, Türk milletinin bağımsız ve çağdaş bir devlet kurma yönündeki hayali ve vizyonuna ulaşmayı sağlamıştır. Atatürk'ün bu ileri görüşlülüğü ve vizyoner liderliği sayesinde milli egemenliğin kazanılması da Türk milletinin en büyük kazanımlarından biri olmuştur.

## 3. ATATÜRK'ÜN VİZYONER LİDER ÖZELLİKLERİNİN MİLLİ EGEMENLİĞİN KAZANILMASINDAKİ ROLÜ

The article examines the leader of the Turkish War of Independence, the founder of the Republic of Turkey and the first president Mustafa Kemal Ataturk – as a great personality. The study of the life path of Mustafa Kemal Ataturk will help the growing young generation to understand the philosophy of the creation of the Republic of Turkey and to realize what difficulties it has overcome in order to achieve its present day. To understand Mustafa Kemal Ataturk means to realize that there is a foundation, a basis for future generations to further develop the Republic of Turkey and ensure its progress. Mustafa Kemal Ataturk is a leader, patriot, realist and peace-loving personality integrated with his nation, a genius with innate military features. Mustafa Kemal Ataturk faced great difficulties in the process of creating a national state, but by taking power from his nation and thanks to his national will, he established the Republic of Turkey in the face of these difficulties.

**Keywords:** Mustafa Kemal Ataturk, founder of the Republic of Turkey, personality, struggle for independence.

## Giriş

Bildiyimiz kimi, XIX əsr boyunca müəyyən islahatların həyata keçirilməsində müsbət irəliləyişlər əldə olunsa da, Türk milləti ilk növbədə müasir cəmiyyətlərlə ayaqlaşmağa çalışırdı və bu sahədə istənilən nəticəni əldə edə bilməmişdi. Həmçinin, XIX əsr boyunca Osmanlı Dövləti böyük güclərin imperialist hücumlarına məruz qaldığı üçün bürokratik yeniləmə cəhdlərini hərtərəfli və davamlı hala gətirə bilməmişdir. Osmanlı imperiyasının süquta uğraması Türkiyəni dünya xəritəsindən silinmək təhlükəsi ilə üzləşdirmişdi. Orta əsrlərin ən qüdrətli dövləti sayılan Osmanlı imperatorluğunun Afrika və Asiyadakı ərazilərini – Misiri, İraqı, Suriyanı, Fələstini, Yunanıstanı itirdiyi, Anadoludakı torpaqlarının

cənub hissəsinin fransızlara, qərb hissəsinin yunanlara, əsas hissəsinin İngiltərəyə verilməsinin planlaşdırıldığı bir dövrdə tale türk millətinə, ümumtürk dünyasına Mustafa Kamal Atatürkü bağışladı və o, türk xalqının xilaskarı oldu. Belə bir çətin zamanda türk xalqının yenilməz cəsarəti ilə böyük Atatürk dühasının birliyi sayəsində tarixdə analoqu olmayan, görünməmiş bir istiqlal mücadiləsi gerçəkləşdi. Və bu mücadilənin sonunda Böyük türk xalqının qazandığı misilsiz qələbə dünyanın güclü ölkələrini Türkiyəni bir dövlət kimi qəbul etmək məcburiyyəti qarşısında qoydu.

M.Atatürkün 1981-ci ildən 1938-ci ilədək keçən həyatı çökmə və dağılma mərhələsində olan Sultanlıq-Xilafət rejimindən Milli Cümhuriyyət Dövlət rejiminə keçidin dramı içərisində keçən bir yaşamdır. Bu zaman aşamasında “Mustafa Kemal Atatürkü, bəzi zamanlarda bir şeylər etməyə çalışan gənc zabit,... bəzi zamanlarda imperiyanın müxtəlif cəbhələrində vuruşan komandir, heç bir zaman ümidsizliyə düşməyən, bir dövlət və ya hökümət başçısına yol göstərən, səsini duyuran kişi və ən sonunda özünə güvənən bir dövlət adamı, yepyeni bir dövlət qavramının əsasını qoymuş, onun təməlini atmış bir dövlət adamı kimi görürük” (1).

Tarixdə Mustafa Kamal Atatürk kimi böyük hərbi qələbələr qazanmış başqa sərkərdələr də olmuşdur. Məsələn, Makedoniyalı İsgəndər dünyanın böyük bir hissəsini fəth etmişdir. Lakin Atatürk yalnız sərkərdə deyildi, o, həm də böyük dövlət xadimi, böyük mütəfəkkir idi. Atatürkün təməl prinsipləri adlandırılan siyasi irsi onun çox böyük mütəfəkkir olduğunun sübutudur.

Mustafa Kamal Atataürk Milli Dövlət quruculuğu yolunda çox böyük çətinliklərlə qarşılaşmış, əvvəldə dostlarına sözünü keçirə bilmədiyi, yalnız qaldığı zamanlar da olmuşdur. Hətta Mustafa Kamal Atatürk Anadolunu xarici işğalçılardan təmizləmək üçün Samsundan hərəkətə keçəndə təslimçi Sultan höküməti onu hədələyirdi, bunun heç bir nəticə vermədiyini görəndə isə həmin hökümət Mustafa Kamala ölüm hökmü çıxarır. Çünki Mustafa Kamal, heç olmazsa, türklərin əlində qalan axırıncı əraziləri işğalçılardan xilas etmək istəyirdi. Bütün bunlar Atatürkün hansı çətinliklərə məruz qaldığını, necə mürəkkəb bir hərbi və siyasi şəraitdə mübarizə apardığını göstərir. Bununla bağlı Yakup Kadri Karaosmanoğlu “Tərcüman” qəzetində nəşr etdirdiyi “Atatürk və Gənclik” məqaləsində yazır: “Mustafa Kamalın daim məchul qalan tərəfi, onun böyük Zəfərə çatmazdan öncə çəkdiyi əzab və işkəncələrdir. Dostlarına söz keçirə bilməz, rəhbərlərə dərdini anlada bilməz, dövlət və siyasət adamlarını yola gətirə bilməzsə, qapılarını döyər, açmazlar, çağırar, qışqırar, eşidən olmaz, “Dövlət batır” deyər, sultan gözlərini çəkər, məsul şəxslər dodaq büzərlər...Gəncliyə Atatürkün bu cəfa dövrü anlatılmalıdır ki, gənclik möhtac olduğu əzim və iradə dərsini ala bilsin” (3). Atatürk bütün həyatı və fəaliyyəti boyunca mənsub olduğu millətin ruhunu, iradəsini ifadə edirdi və onun bəzən daxili müqavimətlərə rast gələn mübarizəsi xalqın gələcək taleyinə, tərəqqisinə hesablandığından, nəticədə, bütün maneələri dəf edirdi.

**Araşdırma və bulğular**

Vətənini və millətini hər şeydən üstün tutan Atatürkün vətənpərvərliyi uşaqlıqdan bəri ona xas keyfiyyət idi. Məsələn, 1897-ci il Türk-Yunan müharibəsində iştirak etmək istəyi buna bariz bir nümunədir. Atatürk xatirələrində yazır: “Gəncliyimin ən həyəcanlı günlərini yaşadım. Gənc yaşıma baxmayaraq, könüllülər arasına qatılmaq istəyirdim”. Eyni şəkildə, o, Sakarya vuruşmasında üç qabırğa sümüyü qırılmış, oturaq halda iyirmi iki gün, iyirmi iki gecə yatmadan döyüşü idarə etmişdir (4).

Atatürk düşmənlərini belə asanlıqla bağışlayan alicənab bir lider idi. İstiqlal müharibəsi zamanı Afyon savaşında məğlub olub əsir düşən Yunan ordularının baş komandanı Trikopisin əlini sıxaraq “hər komandir məğlub ola bilir, üzülməyin generalım” deyə könlünü almış və qılıncını geri vermişdi. Lakin Atatürk vətəninə xəyanət edənlərə qarşı barışmaz mövqedə idi. Məsələn, Nazirlər Şurasının 26 may, 1920-ci il tarixli qərarı ilə vətənə xəyanət edənlərin vətəndaşlıq hüququndan məhrum olması və milliyətdən çıxarılmasını nəzərdə tutan “Hıyaneti Vataniye Kanunu”nun səs birliyi ilə qəbul edilməsini sağlamışdır (5).

Mustafa Kamal bir əsgər üçün vacib ola biləcək bir çox keyfiyyətlərə sahib idi: məsələn, güvən, cəsarət, məsuliyyət, müxtəlif ehtimalları çox yaxşı dəyərləndirmə, ani qərar qəbul etmə. Bununla belə, o, müharibə tərəfdarı deyildi. Ona görə də “Müharibə zəruri və həyati olmalıdır, qənaətindəyəm. Milləti müharibəyə götürüncə vicdan əzabı çəkməməliyəm. “Öldürəcəyik” deyənlərə qarşı “ölməyəcəyik” deyə müharibəyə girməliyik. Lakin millət həyati təhlükə qarşısında qalmadıqca, müharibə bir cinayətdir” deyirdi (6).

İsmet Bozdağ Atatürkün sülhsevərliyini vurğulayaraq demişdir: "Dünyanın ən hazırlıqlı əsgərlərindən biri olduğu halda sülh tərəfdarı idi. "Yurtta sülh, cihanda sülh ifadəsi" bunun sübutudur. Bütün həyatı boyunca sülhü qorumağa çalışdı. Hitleri, Mussolinini hərbi balladalar oxuduqları üçün sevmirdi. Bölgəsində və dünyada sülhü qorumaq üçün əlindən gələni etdi və bu çalışmaları içində gözlərini həyata yumdu. Sülh, barış Atatürk düşüncələrinin meyvəsidir. Haqqlar qüvvətlə yox edilməzlər, qüvvətlə qorunarlar. Qurtuluş mücadiləsi bu məntiqin zəfəridir" (7).

Cümhuriyyətin elanından sonra Atatürk yenilikçi, təşkilatçı və milyonlarla insanı yönləndirən lider olmuşdur. Türkiyə Cümhuriyyətini qurduqdan sonra yeni Türkiyəni həm siyasi quruluş, həm də sosial-mədəni dəyərlər baxımından müasir, qüdrətli bir dövlətə çevirmək üçün həyatın bütün sahələrini əhatə edən dünyəvi inqilablar həyata keçirilməli idi. Atatürkün həyata keçirdiyi bu inqilablardan biri də milli mənafe və dövlətçilik baxımından müstəsna əhəmiyyət kəsb edən – dil inqilabı idi. Bu yolda Atatürkün atdığı ilk addım – türk dilinin səs quruluşuna uyğun gəlməməklə bərabər, öyrənilməsinin mürəkkəbliyi səbəbilə geniş xalq kütləsinin savadsızlığına yol açan ərəb əlifbasından latın əlifbasına keçid haqqında qərarın qəbul edilməsi oldu. İslam dininin hökm sürdüyü bir ölkədə müqəddəs sayılan ərəb əlifbasını dəyişmək cəhdi böyük cəsarət tələb edirdi və bu addım, sözün əsl mənasında, böyük ictimai-siyasi məzmuna malik olan inqilab idi. Osmanlı imperatorluğu dövründə milli dil anlayışı yox idi, üç dilin – ərəb, fars, türkcənin qarışığından ibarət olan, sonralar "osmanlıca" adlandırılan rəsmi yazı dili formalaşdırılırdı ki, xalq dili ilə bu dil arasında dərin bir uçurum var idi. Atatürk dil siyasətini elmi əsaslar üzərində həyata keçirmək üçün nüfuzlu təşkilatın qurulması önəmliliyini əsas tuturdu, bu səbəbdən 1932-ci il 11 iyul tarixində Çankaya köşkündə aparılan uzun müzakirələrin sonunda "Türk Dilini Tədqiq Cəmiyyəti" adı ilə adlandırılacaq təşkilatın layihəsi hazırlandı. Atatürkün düşüncəsinə görə, dil – cəmiyyətdə və milli mədəniyyətdə bütünləşdirici və birləşdirici rol oynayan, milli birlik və bərabərliyin yaradılmasını təmin edən bir sərvətdir. Dil inqilabına düzgün istiqamət vermək məqsədilə Atatürkün yaşamı boyunca üç dil qurultayı çağırılmışdır. Atatürk əcnəbi xüsusiyyətlərini tam saxlayan və xalq tərəfindən mənimsənilməmiş sözləri dildən atmağı; türkcələşmiş, canlı danışıq dilində vətəndaşlıq hüququ qazanmış sözləri isə dildə saxlamağı düzgün yol hesab edirdi. Buna görə də, o, dilə dair xaricdə çıxan əsərləri ölkəyə gətizdirir, mütəxəssislərə oxutdurur, özü də gecə-gündüz araşdırmalar apararaq yeni sözlər üzərində düşünürdü. Hətta Atatürk riyaziyyatla bağlı bir çox yeni sözlər də düzəltməyə müvəffəq

olmuşdur: *eşit (bərabər), üçgen (üçbucaq), dörtgen (dördbucaq), uzay (fəza), çap (diametr), yarıçap (radius), gerekçe (dəlil, səbəb)* və s.

Atatürk şəxsi sərvətinin bir hissəsini ölmündən bir az öncə, Tarix və Dil Qurumlarına vəsiyyət etmişdir.

29 oktyabr 1923-cü ildən 1938-ci ildə ölümünə qədər dalbadal dörd dəfə prezident seçilmiş Mustafa Kamal Türkiyə tarxində ən uzun müddət bu vəzifəni icra edən prezident olmuşdur. Türkiyə tarixində misilsiz xidmətləri olan Mustafa Kamala 24 noyabr 1934-cü il tarixli 2587 saylı qanunla Atatürk soyadı verilmiş və bu soyadın başqaları tərəfindən istifadəsi qadağan edilmişdir.

Atatürk şəxsiyyətinin əzəməti yalnız Türkiyə sərhədləri ilə məhdudlaşmır, Atatürkün adı XX əsr dünya tarixinin yetişdirdiyi ən böyük siyasi, hərbi, dövlət xadimlərinin sırasındadır. Onun şəxsiyyəti haqqında dünyanın bir çox ölkələrində yüzlərlə kitab yazılmışdır. Osmanlı imperiyasının xarabalıqları üzərində müasir Türkiyə Cümhuriyyətini quran Mustafa Kamal Atatürk öz ağlı və cəsarəti ilə dünyada yüz milyonlarla insanın dərin ehtiramını qazanmış, ən məşhur siyasətçilər belə bu böyük şəxsiyyətə heyranlıqlarını gizlətməmişlər. Vinston Çörçill Atatürkün ölümünü nəinki Türkiyənin, bütövlükdə Avropanın böyük itkisi adlandırmışdı. Ruzvelt isə dərin üzüntü keçirdiyini dilə gətirmişdi. V.İ.Lenin Atatürk haqqında danışarkən, onun yaxşı bir təşkilatçı olduğunu qeyd etmişdir (8). BMT-nin mədəniyyət, elm və təhsil sahəsi üzrə ixtisaslaşmış təşkilatı olan UNESCO tərəfindən 1981-ci il "Atatürk ili" elan edilmişdi. Mustafa Kamal Atatürkün adını daşıyan beynəlxalq sülh, barış mükafatına layiq görülənlərdən biri də ümummilli liderimiz Heydər Əliyev olmuşdur.

Mustafa Kamal Atatürkün xatirəsi ölkəmizdə hər zaman ehtiramla yad olunur. Azərbaycanda Atatürk Mərkəzinin yaradılması bu istiqamətdə görülən ən mühüm addımlardan biridir. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2001-ci il mart ayının 9-da yaradılmış bu mərkəzin qarşısına "Türk dünyasının böyük öndəri, Türkiyə Cümhuriyyətinin banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün türk xalqının tarixində tutduğu mühüm yeri nəzərə alaraq, Atatürk irsinin, ümumiyyətlə türk tarixi və

mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması" vəzifəsi qoyuldu. H.Əliyev müsahibələrindən birində söyləmişdir: "Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi. Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə də sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, dahiliyini göstərir, öz xalqına böyük xidmətlərinin nəticəsini göstərir. Yalnız Mustafa Kamal Atatürkün iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı imperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratsın. Bilirsiniz ki, Türkiyəni o vaxt parçalamaq istəyirdilər. Mustafa Kamal Atatürkün başçılığı ilə, onun başqanlığı, rəhbərliyi ilə aparılan qurtuluş savaşı türk xalqını bütün bu ölkələrin Türkiyəyə qarşı yönəldilmiş cəhdlərindən xilas etdi. Mustafa Kamal Atatürk şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı cümhuriyyəti yaşada bilibdir" (9).

Türkiyə Cümhuryyətinin banisi Mustafa Kamal Atatürk 10 noyabr 1938-ci ildə uzun sürən xəstəlikdən sonra İstanbulda Dolmabaxça sarayında vəfat etdi. 21 noyabr 1938-ci ildə cənazəsi böyük mərasimlə Ankaraya yola salındı. Atatürk Ankara Etnoqrafiya Muzeyindəki müvəqqəti məzarına qoyuldu, 15 ildən sonra 1953-cü il noyabrın 10-da onun üçün tikilmiş Anıtkabirdəki son məzarında dəfn olundu. "Anıtkabir" (hərfi tərcümədə "xatirə qəbir") Türkiyə Qurtuluş Savaşının öndəri, Türkiyə Respublikasının banisi və ilk Prezidenti Mustafa Kamal Atatürkün mavzoleyidir. Mavzoley Türkiyə Hökumətinin keçirdiyi layihə müsabiqəsində təqdim olunan 48 layihə arasından seçilmiş – memarlar Emin Onat və Əhməd Orxan Ardanın birgə layihəsi əsasında tikilmişdir. "Benim naçiz vücudum elbet bir gün toprak olacaktır, ancak Türkiye Cümhuriyeti ilelebet payidar kalacaktır" - deyən cümhuriyyət qurucusu, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün anım mərasimi hər il noyabrın 10-da keçirilir və həmin gün Ankarada böyük öndərin uyuduğu "Anıt qəbir"ə insan seli axışır, duyğu dolu anlar yaşanır.

Qardaş Türkiyənin Mustafa Kamal Atatürkdən miras qalan, həm istiqlaliyyət uğrunda milli mübarizənin və qələbələrin ildönümünü xatırlatdığı, həm də insanlara sevinc və ruh yüksəkliyi bəxş etdiyi üçün böyük əhəmiyyət kəsb edən milli bayramları vardır.

23 Nisan Milli Suverenlik və Uşaq bayramı məhz bu tarixi günlərdəndir və 1921-ci ildən başlamış neçə illərdir ki, xüsusi təntənə ilə qeyd edilir. 1920-ci il aprelin 23-ü Türkiyənin Birinci Böyük Millət Məclisinin yarandığı, türk xalqının suverenliyini elan etdiyi gündür və həmin tarixdən bir il sonra, yəni 23 aprel 1921-ci ildə Uşaq Bayramının rəsmi şəkildə bəyan edilməsi haqqında qanun qəbul edilmişdir. Çox sayda mənəvi övladı olan Türkiyə Cümhuriyyətinin qurucusu və ilk dövlət başçısı Qazi Mustafa Kamal Atatürk Böyük Millət Məclisinin açılışı ilə birgə o günü türk uşaqlarına hədiyyə etmişdir. Vətənin müdafiəsinin uşaqların müdafiəsi ilə başladığını deyən Atatürk, bu dərin sevginin bayram şənliyi ilə həyata keçirilməsinin və əbədiləşdirilməsinin təşəbbüskarı olmuşdur. Atatürkün təşəbbüsü ilə qeyd olunan bu milli bayram 1979-cu ildən beynəlxalq səviyyəli uşaq bayramı kimi qeyd olunmağa başlamış, hazırda təxminən 50-dən çox ölkənin uşaqlarının qatıldığı bir bayrama çevrilmişdir. 2000-ci ilə qədər 23 Nisan şənlikləri və yarışlar Ankarada təşkil edilirdisə, sonrakı illərdə Türkiyənin müxtəlif yerlərində – İstanbul, Quşadası, Səlcuq, Antaliya kimi şəhərlərdə, 2011-ci ildə Bursada, 2012-ci ildə Konyada, 2013-cü ilə İzmirdə təşkil olunmuşdur. Türk milləti üçün müstəqilliyin sarsılmaz ifadəsi olan, hər il yüksək coşqu ilə qeyd olunan, türk milli ruhunu təmsil edən bu bayram Mustafa Kamal Atatürkün dünya uşaqlarına hədiyyəsi, qoyduğu mirasdır.

Bayram günü Türkiyə Respublikasının dövlət adamları Anıt qəbrini ziyarət edir, Atatürkün müxtəlif abidələrinin yanında rəsmi mərasimlər keçirilir. Rəsmi təbirlərin ardınca müxtəlif qurumlar, məktəblər tərəfindən təşkil edilən şənliklərə, yarışmalara yer verilir.

Həmin gün dövlətin idarəsinin uşaqların öhdəsinə buraxılması, Türkiyə prezidenti və Baş Naziri də daxil olmaqla şəhər valilərinin, bələdiyyə sədrlərinin, kənd və qəsəbə muxtarlarının öz yerlərini uşaqlara verməsi və onların verdiyi göstərişlərə əməl etməsi bayramın ən maraqlı məqamlarındandır. Bu, sabahın qurucusu kimi uşaqlara verilən həqiqi dəyərin ifadəsi kimi diqqəti cəlb edir.

Azərbaycan uşaqları da hər il böyük sevgi və fəxarət hissi ilə istər ölkəmizdə, istərsə də qardaş Türkiyədə düzənlənən 23 Nisan tədbirlərinə qoşulurlar.

**Sonuç**

Nəticədə, Türkiyə Cümhuriyyətinin qurucusu Atatürkün şəxsiyyətini onun öz sözlərilə ifadə etmək daha uyğun olacaq: "Beni görmek demek mutlak yüzümü görmek değildir. Benim fikirlerimi, benim duygularımı anlıyorsanız bu kafidir. İki Mustafa Kemal vardır: Biri ben, et ve kemik geçici Mustafa Kemal... İkinci Mustafa Kemal, Onu ben kelimesiyle ifade edemem. O ben değil, bizdir! O, memleketin her köşesinde yeni fikir, yeni hayat ve büyük ülkü için uğraşan aydın ve savaşçı bir topluluktur. Ben onların rüyasını temsil ediyorum. Benim teşebbüslerim, onların özlemini çektikleri şeyleri tatmin içindir. O Mustafa Kemal sizsiniz, hepinizsiniz. Geçici olmayan, yaşaması ve başarılı olması gereken Mustafa Kemal Odur (2).

Üstün zəkaya, nadir sərkərdəlik qabiliyyətinə və mükəmməl idarəetmə bacarıqlarına görə ad qazanmış Mustafa Kamal Atatürk nəinki Türk dünyasının, eləcə də bütün dünyanın diqqət mərkəzində olan şəxsiyyət idi. Onun gələcəyi görmə bacarığı və dərin düşüncəsi sayəsində Türkiyə bu qədər güclənə və özünü təsdiqləyə bildi. Bu gün bütün türk xalqı dünyada ən qüdrətli Türkiyə dövlətinin varlığı üçün bir böyük insana – Mustafa Kamal Atatürkə əbədi olaraq borcludur!

**Kaynakça**

1. Niyazi Berkes, Atatürk ve Devrimler, Adam Yayınları, İstanbul 1993, s. 74-75.
2. Utkan Kocatürk; Atatürk'ün Fikir ve Düşünceleri, ATAM Yayınları, Ankara 1999, s. 406.
3. Hasan Rıza Soyak, Atatürk'ten Hatıralar, YKY, Ankara 1973, s.98.
4. İsmet İnönü; Devlet Kurucusu Atatürk, Belleten, C.33, S.129, Ocak 1969, s.18.
5. BCA; Bakanlar Kurulu Kararları, Karar No: 15.
6. Kocatürk Utkan; Atatürk'ün Fikir ve Düşünceleri, ATAM, Ankara 1999
7. Bozdağ İsmet; Atatürk'ün Evrensel Boyutları, Kültür Bakanlığı Yayınları, Ankara 2001.
8. Aydemir Şevket Süreyya; Tek Adam Mustafa Kemal, C.I-III, Remzi Kitabevi, 1999.
9. Heydər Əliyev Atatürk haqqında. Toplayanı və tərtib edəni Səfalı Nəzərli Bakı: "AzAtaM", 2003
10. Ulusal bir devlet kurucusu olarak Mustafa Kemal Atatürk. Serdar Sakin. Sosyal Bilimler Enstitüsü Dergisi, № 15, 2003/2, 191-205 s.

# YENƏ AYLARDAN NİSAN

***Rəhilə Hümmətova***

*f.ü.f.d. dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti Filologiya fakültəsi Azərbaycan dili və onun tədrisi texnologiyası bölümü*

*ORCID ID: 0000-0003-2521-6361*

**ÖZET**

Türk yavrularının səbirsizliklə, həsrətlə gözlədiyi böyük gün – 23 Nisan! Nisan ayının səmada parlayan günəşi yerə elə bir işıq salır, şəfəqləri elə bir istilik yayır ki, onun qarşısında "zəncirlər əriyir, tac və taxtlar yox olur". Bu, müstəqilliyin, suverenliyin işığıdır, onun nəfəsinin odu, alovudur!

Hər bir millətin, ulusun tarixində qürurla anılan, dövlət səviyyəsində xalqın bayramı olaraq böyük coşqu ilə keçirilən özəl günləri vardır. Bu elə bir gündür ki, bütün dünya millətləri səni bu gün münasibətilə təbrik edir, istəsə də, istəməsə də, diplomatik etiketlərə uyğun olaraq sənin böyük bir keçmişi, öz sözünü diktə etdiyi bu günü və sarsılmaz, daha da güclənmiş, zənginləşmiş gələcəyi olan bir dövlət kimi var olduğunu söyləmək məcburiyyətində qalır. Bu gün asanlıqla qazanılan adi günlərdən deyil. Bu gün türk millətinin azadlıq, barış, suverenlik, uğurları paylaşmaq, dövlət kimi var olduğunu hayqıran, könülləri fərəhləndirən, üzləri güldürən, duyğuları qanadlandıran möhtəşəm bir günüdür! Bu gün türk xalqının istiqlaliyyət, zəfər bayramıdır! 23 Nisan 1920-ci il böyük türk millətinin suverenliyini, müstəqilliyini elan etdiyi bir gündür. Bu gün həm də türk xalqının iradəsini təmsil edən Birinci Böyük Millət Məclisinin açıldığı böyük gündür. Bu tarixi gün bütün cahana qardaşlıq, bərabərlik, dostluq toxumlarını səpən, bu yöndə çağırışlar edilən bir gündür. 23 Nisan Türk Milli tarixinin yeni bir başlanğıcıdır, dövlətçilik üçün atılan addımlardır, yeni bir dönüş nöqtəsidir.

Türkiyə Böyük Millət Məclisinnnin 29 oktyabr 1923-cü ildə qəbul etdiyi qərarla Türkiyə Cümhuriyyətinin qurulduğu elan edildi. 1925-ci ildə bu günün türk dövlətinin yaranması günü kimi qeyd olunması barədə qanun qəbul olundu. Məqalədə Türkiyə Cümhuriyyətinin elanı, Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsinin müasir Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilməsi, böyük şəxsiyyətin Cocuq Bayramı münasibəti ilə türk cocuqlarına ünvanladığı hikmətli çağırışlar yer almışdır.

Türk millətinin qəlbində onun müstəqilliyinin, suverenliyinin sarsılmaz ifadəsi olaraq ən önəmli yer tutan 23 Nisan Beynəlxalq Müstəqillik və Cocuq Bayramı hər il Türkiyə Cümhuriyyətində, Şimali Kipr Türk Cümhuriyyətində və eləcə də xarici ölkələrdəki səfirliklərdə, böyük elçiliklərdə, məktəblərdə, Azərbaycanda böyük coşqu ilə qeyd edilir.

**Açar sözlər:** 23 Nisan – böyük gün, Türkiyə Cümhuriyyəti, Mustafa Kamal Atatürk, cocuqlar millətin gələcəyidir

**ABSTRACT**

The big day that Turkish children are waiting for with impatience and longing - 23 Nisan! The sun of the month of Nisan, shining in the sky, casts such a light on the earth, its dawn spreads such heat that "chains melt, crowns and thrones disappear" in front of it. This is the light of independence, sovereignty, the fire of his breath!

Each nation has special days that are proudly celebrated in the history of the nation and celebrated with great enthusiasm as public holidays at the state level. This is a day when all the nations of the world congratulate you on this day, whether you like it or not, according to diplomatic etiquette, you have a great past, a present day dictated by your word, and an unshakable, stronger, richer future. has to say that there is. Today is not one of those easy days. Today is a great day of freedom, peace, sovereignty, sharing success, existence of the Turkish nation as a state, cheering hearts, making faces smile, giving wings to emotions! Today is the holiday of independence and victory of the Turkish people! Nisan 23, 1920 is a day when the great Turkish nation declared its sovereignty and independence. Today is also the great day of the opening of the First Grand National Assembly, which represents the will of the Turkish people. This historic day is a day that sows the seeds of brotherhood, equality, and friendship to the whole world, and calls in this direction. Nisan 23 is a new beginning of Turkish national history, steps taken for statehood, a new turning point.

On October 29, 1923, the Republic of Turkey was announced by the decision of the Grand National Assembly of Turkey. In 1925, a law was passed to celebrate this day as the day of the establishment of the Turkish state. The article contains the announcement of the Republic of Turkey, the high appreciation of Mustafa Kemal Atatürk's statehood experience by Heydar Aliyev, the founder of modern Azerbaijan statehood, and the wise appeals of the great personality to Turkish children on the occasion of Children's Day.

Nisan 23 International Independence and Children's Day, which holds the most important place in the heart of the Turkish nation as an unshakable expression of its independence and sovereignty, is celebrated with great enthusiasm every year in the Republic of Turkey, the Turkish Republic of Northern Cyprus, as well as in foreign embassies, embassies, schools, and Azerbaijan.

**Key words:** Nisan 23 – great day, Republic of Turkey, Mustafa Kemal Atatürk, children are the future of the nation

## GİRİŞ

Yenə aylardan Nisan! Yağan yağmurlardan, qışın sərt soyuğundan sonra baharın xoş nəfəsini duyduğun, günəşin ana təbiətə yaydığı al şəfəqlərlə bəzəndiyin, istisinə qızındığın, yaşamaq-yaratmaq diləyinin coşduğu, könüllərin fərəhləndiyi, həyatın qaynadığı, güllərin, çiçəklərin açaraq ətrafa bihuşedici ətir yaydığı, qəlblərə mərhəmət, sevgi saldığı gözəl Nisan ayı! Sən yalnız qadir Tanrının sənə bəxş etdiyi qüdrətlə sevilmədin, Sən məmləkətimə, ulusuma, türk millətimə yaşatdığın zəfərlə, müstəqillik, Cocuq Bayramı ayı olaraq da sevildin, özü də əbədiyyən. Nisan ayı təsadüfən seçilmədi. Baharın bu gözəl ayında həyat yenilənir, qəlblər sevgi ilə aşıb-daşır, təbiətin özü kimi! Yağan yağmurlar da bütün pislikləri, kin-kidurəti, ağrı-acıları yuyub-aparır, ruhun arınır. Bax beləcə ana təbiətin Nisan ayına vurduğu naxışlar azad, hürr yaşayan türk millətinin cocuqlarının munis qəlblərinə böyük sevinc gətirir, kiçicik ürəkləri paylaşmaq, mərhəmət duyğuları ilə aşıb-daşır. İki bəxtiyarlıq qovuşur bu ayda – həm

Nisan ayının özü ilə gətirdiyi bahar coşqusu, həm də cocuqlara sunulan azadlıq, bərabərlik, bayram ovqatı! Bunlardır Nisan ayını özəl edən! Türk yavrularının səbirsizliklə, həsrətlə gözlədiyi böyük gün! Nisan ayının səmada parlayan günəşi yerə elə bir işıq salır, şəfəqləri elə bir istilik yayır ki, onun qarşısında "zəncirlər əriyir, tac və taxtlar yox olur". Bu, müstəqilliyin, suverenliyin işığıdır, onun nəfəsinin odu, alovudur!

**ARAŞDIRMA VƏ BULĞULAR**

Hər bir millətin, ulusun tarixində qürurla anılan, dövlət səviyyəsində xalqın bayramı olaraq böyük coşqu ilə keçirilən özəl günləri vardır. Bu elə bir gündür ki, andıqca köksün qabarır, sinədolusu, rahatlıqla nəfəs alırsan, başının üstündə, vətənin azad səmasında ehtişamla dalğalanan bayrağına fəxrlə baxırsan, öz ana dilində bütün cahana səslənib barışın insanlığın təməl daşı olduğunu duyurursan. Bu elə bir gündür ki, bütün dünya millətləri səni bu gün münasibətilə təbrik edir, istəsə də, istəməsə də diplomatik etiketlərə uyğun olaraq sənin böyük bir keçmişi, öz sözünü diktə etdiyi bu günü və sarsılmaz, daha da güclənmiş, zənginləşmiş gələcəyi olan bir dövlət kimi var olduğunu söyləmək məcburiyyətində qalır. Bu gün asanlıqla qazanılan adi günlərdən deyil. Bu gün türk millətinin qan yaddaşıdır, azadlıq, barış, suverenlik, eşit olmaq, uğurları paylaşmaq, dövlət kimi var olduğunu hayqıran, könülləri fərəhləndirən, üzləri güldürən, duyğuları qanadlandıran möhtəşəm bir günüdür. Bu gün türk xalqının istiqlaliyyət, zəfər bayramıdır, elə bizim, yəni Azərbaycan türklərinin də bayramıdır.Gününüz hər daima uğurlara vəsilə olsun, əziz türk millətimin gələcəyi, yurdun təməl daşı olan cocuqları!

23 Nisan 1920-ci il böyük türk millətinin suverenliyini, müstəqilliyini elan etdiyi bir gündür. Bu gün həm də türk xalqının iradəsini təmsil edən Birinci Böyük Millət Məclisinin açıldığı böyük gündür. Bu tarixi gün bütün cahana qardaşlıq, bərabərlik, dostluq toxumlarını səpən, bu yöndə çağırışlar edilən bir gündür. 23 Nisan Türk Milli tarixinin yeni bir başlanğıcıdır, dövlətçilik üçün atılan addımlardır, yeni bir dönüş nöqtəsidir. Qərbin topu, tüfəngi, zirehinə qarşı köksłərini sipər edərək vətən, torpaq uğrunda ölüm-dirim savaşına qalxan türk millətinin Türkiyə Böyük Millət Məclisini yaratdığı möhtəşəm bir gündür 23 Nisan günü! Hürr və azad Türkiyə Cümhuriyyətinin təməlinin atıldığı, milli müstəqilliyin elan edildiyi, tarixə qızıl hərflərlə, şəhidlərin, qazilərin müqəddəs qanları ilə yazılan heyrətamiz bir gündür 23 Nisan günü! Türk millətinin qəlbində onun müstəqilliyinin, suverenliyinin sarsılmaz ifadəsi olaraq ən önəmli yer tutan 23 Nisan Beynəlxalq Müstəqillik və Cocuq Bayramı hər il Türkiyə Cümhuriyyətində, Şimali Kipr Türk Cümhuriyyətində və eləcə də xarici ölkələrdəki səfirliklərdə, böyük elçiliklərdə, məktəblərdə, Azərbaycanda böyük coşqu ilə qeyd edilir.

Türkiyə Cümhuriyyətinin qurucusu qazi Mustafa Kamal Atatürk Paşamızın Böyük Millət Məclisinin açılışı ilə bərabər cocuqlara ərmağan etdiyi 23 Nisan Beynəlxalq Müstəqillik və Cocuq Bayramı 23 Nisan 1921-ci ildən etibarən Milli Bayram olaraq qəbul edildi.

Türkiyə Cümhuriyyətinin yaradılması Birinci Dünya Müharibəsi illərində və ondan sonra Osmanlı dövlətini parçalayıb yox etmək istəyənlər üzərində qələbənin nəticəsində yaradılıb. Birinci Dünya Müharibəsində Osmanlı Dövləti məğlubiyyətə uğradıqdan sonra ərazi işğala, parçalanmaya məruz qalmışdı. Osmanlı Dövləti 4 il sürən Birinci Dünya Müharibəsində dünya gücləri tərəfindən tamamilə işğal, pay-püş edilmiş və bu ağır məğlubiyyət "Sver" müqaviləsi ilə rəsmiləşdirilmiş, möhtəşəm bir imperiya acınacaqlı duruma düşmüşdü.

19 may 1919-cu ildə bir neçə zabit dostu ilə kiçik bir gəmidə Samsuna gələn Mustafa Kamal Paşa görüşdüyü insanlara soyuqqanlı, təmkin və qətiyyətli şəkildə demişdir: "Gəldikləri kimi də gedəcəklər.

Tək bir egemenlik var, o da milli egemenlikdir. Ölkəni yenə ulusun öz gücü qurtaracaqdır”. Mustafa Kamal Paşanın qətiyyətlə söylədiyi və inandığı bu gerçəklik özünü çox gözlətmədi.

Mehmet Akif Ersoyun təbirincə desək, “tək dişi qalmış canavar” (Qərb) Türkiyə üzərinə həyasızca axın etmiş, təpədən-dırnağa qədər silahlanaraq “əzəldən bəridir hürr yaşayan” milləti yer üzündən silməyə, torpaqlarına, müqəddəs məkanlarına sahiblənməyə çalışmışdır. Lakin ordunun hər bir nəfəri, əsgəri yalın əllə, vətən boyda sevgisi ilə, başlarının üstündə onları qisasa çağıran şəhid qardaşlarının ruhları ilə, yandırıcı günəşdə yorğun düşən əsgərlərə gölgə salan, sərinlik gətirən səmadakı bayrağı ilə, dilindəki duası, qəlblərindəki imanı, inamı ilə savaşa atıldılar və tarixi bir zəfər qazandılar. Təbii ki, bu zəfərin qazanılmasında Mehmet Akif Ersoyun yazdığı “İstiqlal Marşı” nın da misilsiz rolu olmuşdur. Milli Marş “vətən torpağına əmanət edilən şəhidlərimizin ruhunu üstlərinə kəfən bələyib düşməndən onların qisasını almağa, vətən uğrunda savaşa səslədi vətənin isimsiz qəhrəmanlarını”. (R.Hümmətova. “M.A.Ersoyun “İstiqlal Marşı” nın poetik dili)

Böyük türk millətinin, türk dövlətçiliyinin xilaskarı olmaq kimi taleyüklü, həm də şərəfli bir vəzifənin öhdəsindən gələn Mustafa Kamal Atatürkün başçılıq etdiyi hərəkatın mübarizəsi 1923-cü ildə milli qüvvələrin qalibiyyəti ilə başa çatdı. Türkiyə Cümhuriyyətinin Bakı Böyükelçisi olmuş Turan Moralı söyləyirdi: *“ Çanakkale savaşları sırasında “Anafartalar Kahramanı” sıfatıyla liderlik konumuna yükselen Mustafa Kemalın Anadoluda Kurtuluş hareketini başlatmasıyla, İstanbulda işgal koşulları altında varlığını sürdürmeye çalışan monarşiye alternatif teşkil edən, yeni bir dövlet yapılanmasının temelleri atıldı. 23 Nisan 1920`de, İstanbulun işgalinden sadece birkaç hafta sonra, Ankara`da paralel bir Meclis toplandı. Osmanlı Meclisinin işgalden kaçan bazı üyelerini, Anadolu`nun çeşitli bölgelerinden seçilmiş temsilçileri içeren bu meclis, kurtuluş savaşının yönetimini üstlendi ve Mustafa Kemal`i meclisin başkanı ve başkomutanı ilan etti. 1921`de Teşkilatı Esasiye Kanunu kabul edildi. “Hakimiyet kayıtsız, şartsız milletindir” hükmüne yer veren bu anayasa, ülke üzerinde halife-sultanın hakimiyetinin sona erdiğinin ilanı mahiyetindeydi. Hakimiyetin sadece halktan kaynaklana bileneceği kavramı, dini temele dayanan hakimiyet anlayışının sonunun ve laikliğe geçişin de haberçisiydi”.* (1, 24)

Beləliklə, Türkiyə Böyük Millət Məclisinnnin 29 oktyabr 1923-cü ildə qəbul etdiyi qərarla dünyaya yeni bir dünyəvi dövlətin –Türkiyə Cümhuriyyətinin qurulduğu elan edildi. Qazi Mustafa Kamal Atatürk dövlət başçısı seçildi. 1925-ci ildə bu günün türk dövlətinin yaranması günü kimi qeyd olunması barədə qanun qəbul olundu.

Mustafa Kamal Atatürkün – bu böyük şəxsiyyətin milləti üçün irəli sürdüyü və həyata keçirdiyi ideyaları, milli dövlət quruculuğu üçün irəli sürdüyü prinsipləri Türkiyənin həm keçmişini, həm də gələcəyini əks etdirir. Təbii ki, dünya yenilənir, müasir dünyanın, müasir dövlət quruculuğunun tələbləri XX əsrin əvvəllərində olduğu kimi davam edə bilməz. Lakin bir mütəffəkirin, müdrik bir dövlət qurucusunun təcrübələri köhnələ bilməz. Çünki dahilərin zamanı olmaz. Atatürk Paşamızın, bu böyük insanın simasında Türkiyənin dövlətçilik təcrübəsi, təbii ki, bütün türk xalqlarının siyasətində ilham mənbəyinə, inam yerinə çevrilmişdir. Müasir Azərbaycan dövlətçiliyinin qurucusu möhtərəm Heydər Əliyev Mustafa Kamal Atatürkün dövlət quruculuğundakı təcrübəsini yüksək qiymətləndirir: *“ Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu, mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq qalacağam. ... Mən əmin olduğumu bildirirəm ki, Türkiyə Cümhuriyyəti böyük öndər Mustafa Kamal*

*Atatürkün yolu ilə əbədi olaraq gedəcəkdir. Türk xalqı nə qədər ki bu yolla gedəcək, o qədər də uğurlar əldə edəcəkdir".*

Türk xalqı, onun dövlətçiliyinin təməl daşı, iradəsinin ən güclü ifadəçisi olan türk ordusu həmişə Mustafa Kamal Atatürkün müəyyən etdiyi yolla böyük əzm və inamla irəliləmişdir. Möhtərəm Heydər Əliyev bunu çox yüksək qiymətləndirərək deyirdi: *"Şəxsən mən hesab edirəm ki, Mustafa Kamal Atatürkün türk xalqı qarşısında xidmətləri əvəzsizdir. Yəni o qədər böyükdür ki, ona qiymət vermək çətindir. Amma bunların içərisində onun iki böyük xidməti vardır. Birincisi, Türkiyə Cümhuriyyətinin yaranması; ikincisi, türk ordusunun yaranmasıdır".*

Azərbaycanda Atatürk Mərkəzinin müdiri, AMEA-nın müxbir üzvü Nizami Cəfərov yazırdı: *"Milli dövlət quruculuğu prosesində Heydər Əliyevin daha çox Atatürkə əsaslanması, ondan ilham alması tamamilə təbiidir. Çünki Atatürkün ideyaları ardıcıl olaraq həyata keçmiş, böyük perspektivə malik Türkiyə dövləti yaranmışdır. Və Azərbaycan prezidentinin dediyi kimi, "Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən, milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir".* (1, 10)

23 Nisan Türkiyə Cümhuriyyətinin istiqlal uğruna, masmavi göylərin ənginliklərində nazlı-nazlı dalğalanan hilal uğruna, torpağının hər qarışı uğruna, əziz millətinin əbədi var olması uğruna son damla qanları qalana qədər savaşan, canlarını məkrli, azğın düşmənlərə qarşı sipər edənlərin, şəhidlərimizin, qazilərimizin bu vətəni ərmağan etdiyi bütün cocuqların bayramı, dünya cocuqlarının birlik, bərabərlik bayramıdır. Mustafa Kamal Atatürk inanırdı ki, hər qədəm basdığımız torpağın altında minlərlə kəfənsiz yatan şəhidin qudsal qanları ilə suvarılmış vətən torpağının cocuqları vətənin azad, müstəqil yaşaması üçün atalarının, babalarının əmanətini göz bəbəyi kimi qoruyacaq, bir hilal altında birləşəcək, yorulmaq bilmədən, əzmlə, fədakarlıqla çalışacaq, bilik və təfəkkürləri ilə xariqələr yaradacaq, Vətənin göylərində, eləcə də millətlər içərisində bayraqlarını qürurla dalğalandıracaqlar.

Mustafa Kamal Atatürk üzünü türk millətinə, gələcəyi olan cocuqlara tutaraq deyirdi: "Bütün cahan bilməlidir ki, artıq bu dövlətin və bu millətin başında heç bir qüvvət yoxdur, heç bir məqam yoxdur. Yalnız bir qüvvət vardır, o da milli müstəqillik, suverenlikdir. Yalnız bir məqam vardır, o da millətin qəlbi, vicdanı və mövcudiyyətidir. Müstəqillik qeydsiz-şərtsiz millətindir. Özgürlüyün də, ədalətin də dayandığı beynəlxalq müstəqillikdir. Beynəlxalq müstəqillik xalqın namusudur, qürurudur, şərəfidir. Beynəlxalq müstəqillik elə bir işıqdır ki, onun qarşısında zəncirlər əriyir, tac və taxtlar yox olur. Cümhuriyyəti biz qurduq, siz yaşadacaqsınız".

"Hədəfə yalnız cocuqları yetişdirməklə çata bilmərik. Cocuqlar gələcəyindir. Cocuqlar gələcəyi quracaq adamlardır. Ancaq gələcəyi quracaq olan bu cocuqları yetişdirəcək analar, atalar, qardaşlar hamısı indidən az-çox savadlanmalıdır ki, yetişdirəcəkləri cocuqları bu millət və məmləkətə xidmət edə biləcək, yararlı və faydalı ola biləcək şəkildə yetişdirsinlər! Heç olmazsa, yetişdirmək lüzumuna inansınlar! Məktəblərdən başqa, qəzetlər, kiçik jurnallar (dərgilər) kəndlərə (köylərə) qədər yayınlanıb paylanmalıdır. Bizim kəndlilərimiz (köylülərimiz) nə qəzet, nə jurnal oxumaz. Bilənlər bilməyənləri toplayıb oxutmağı, onlara oxumağı anlatmağı bir vəzifə bilməlidir! Cocuqları sağlıqlı və bilgili yetişdirilməyən xalqlar təməli çürük binalar kimi tez yıxılırlar. Cocuq yurdun təməlidir. Gələcəyimizi təmsil edən cocuqlarımız keçmişdən aldıqları güclə millətimizin sabahlarını şəkillləndirəcəklər".

Bayrağını başının üstündə, Allahı ürəyində, imanı, vətən sevgisini köksündə daşıyan əziz türk millətinin 23 Nisan Milli Müstəqillik və Cocuq Bayramı kutlu olsun!

**SONUÇ.** Hər bir millətin azad yaşamaq hüququ vardır. 23 Nisan günü türk millətinin azadlıq, barış, suverenlik günüdür. Bu gün türk xalqının istiqlaliyyət, zəfər bayramıdır. 23 Nisan Türk Milli tarixinin yeni bir başlanğıcıdır, dövlətçilik üçün atılan addımlardır, yeni bir dönüş nöqtəsidir. 23 Nisan 1920-ci il türk xalqının iradəsini təmsil edən Birinci Böyük Millət Məclisinin açıldığı böyük gündür. Türkiyə Böyük Millət Məclisinnnin 29 oktyabr 1923-cü ildə qəbul etdiyi qərarla Türkiyə Cümhuriyyətinin qurulduğu elan edildi. Qazi Mustafa Kamal Atatürk dövlət başçısı seçildi. 1925-ci ildə bu günün türk dövlətinin yaranması günü kimi qeyd olunması barədə qanun qəbul olundu. Mustafa Kamal Atatürkün dövlətçilik təcrübəsi bütün türk xalqlarının ilham mənbəyinə çevrilmişdir. Müasir Azərbaycan dövlətçiliyinin qurucusu Heydər Əliyev Mustafa Kamal Atatürkün dövlət quruculuğundakı təcrübəsini, ordu qurmaq siyasətini çox yüksək qiymətləndirmişdir. Mustafa Kamal Atatürk türk cocuqlarını elm, bilik əldə etməyə, böyük qurbanlar hesabına qazanılmış müstəqilliyi qoruyub-saxlamağa, keçmişdən dərs alaraq gələcəyini möhkəmləndirməyə səsləyir.

**KAYNAKCA**

1. Mustafa Kamal Atatürk və Türkçülük. Azərbaycanda Atatürk Mərkəzi (elmi konfransın materialları). Bakı, 29 oktyabr 2005
2. https://m.star.com.tr/güncel/23-nisan
3. https://www.mynet.com/23-nisan
4. https://www.cumhuriyet.com.tr/qaleri/23-nisan

# TÜRK İSTİKLAL MÜCADELESİNDE BİRİNCİ MECLİS'İN TEŞEKKÜLÜ VE ROLÜ

# THE ORGANIZATION AND ROLE OF THE FIRST ASSEMBLY IN THE TURKISH INDEPENDENCE STRUGGLE

***MA Tekin ŞEKER***

*National Education Directorate, Diyarbakır*

*ORCID NO: 0000-0001-5297-8498*

## ÖZET

Bu çalışmada Büyük Millet Meclisinin açılış nedenleri, koşulları ve süreci, sosyal ve siyasal arka planı ile ele alınıp, olayın ana unsurları ile irdelenmesi amaçlanmıştır. Çalışmada hilafet ve saltanat makamlarını kurtarma düsturu ile harekete geçen istiklal mücadelesinin, modern bir ulus ve devlet yaratma ülküsüne nasıl evrildiği ele alınmıştır. Meclisin; devletin oluşturduğu değil, devleti oluşturan bir Meclis hüviyetinde olması nedeniyle bir yandan işgal kuvveleri ile, öte yandan da saltanat ile uğraştığı belirtilmiş, Meclisin yapısı ve işlevleri üzerinde durulmuştur. Meclisin, cumhuriyete giden süreçte önemli bir dönemeci teşkil ettiği ve devamında Meclisin açılış gününün ulusal egemenlik bayramı olarak belirlenmesinin, Meclisin kurucu kadrosunun Meclisi sadece bir hakimiyet aracı olarak görmeyip, milletin birleşme ülküsünü sosyokültürel bir paradigma ile ele aldığı değerlendirilmiştir.

**Anahtar Kelimeler:** Türkiye Büyük Millet Meclisi, 23 Nisan 1920, Saltanat, Demokrasi, İstiklal Mücadelesi.

## ABSTRACT

In this study, it is aimed to examine the reasons and conditions and process of the opening of the Grand National Assembly, with its social and political background, and to examine the main elements of the event. In the study, it is discussed how the struggle for independence, which took action with the principle of saving the caliphate and sultanate authorities, evolved into the ideal of creating a modern nation and state. of the assembly; It has been stated that since it is an assembly that constitutes the state, not the state, it deals with the occupation forces on the one hand and the sultanate on the other hand, and the structure and functions of the assembly are emphasized. The assembly constituted an important turning point in the process leading to the republic. Subsequently, it was evaluated that the opening day of the assembly was determined as the national sovereignty day, and the founding staff of the assembly did not see the assembly only as a means of sovereignty, but discussed the nation's unification ideal with a socio-cultural paradigm.

**Keywords:** Turkish Grand National Assembly, 23 April 1920, Sultanate, Democracy, Independence Struggle.

## GİRİŞ

Osmanlı İmparatorluğu'nun yüzyıllar boyunca farklı kıta ve coğrafyalarda birbirinden bağımsız milletleri, tek bayrak altında toplayarak tarihte eşine az rastlanacak bir yönetim sergilediği aşikardır. Bu yönetim anlayışına bakıldığında bütün yetkilerin merkezde toplandığı bir sultan ve onun çevresinde kendisine biat çerçevesinde ona yardımcı olmak kaydıyla bir grubun varlığı temel esası teşkil etmiştir. İmparatorluğun kuruluş ve özellikle de yükseliş dönemlerinde bu tarz yönetim anlayışı herhangi bir olumsuz sonuç doğurmazken; gerileme döneminin başlaması ve dağılmaya doğru giden süreçte önemli sorunların nedenlerinden biri olmuştur. Başta ulus devletlerin doğmasına etki eden Fransız İhtilali ve sonrasındaki gelişmeler, başta devletin bünyesindeki gayrimüslimler olmak üzere diğer milletlerin kopuş çabalarını körüklemiştir. Devletin bütünlüğünü sağlamak için yapılan batı eksenli reformların yanında Tanzimat ve Islahat Fermanlarının ardından I. Meşrutiyet'in ilanıyla, Türk tarihinde ilk defa

hükümdarla birlikte bir Meclisin olduğu anayasal monarşiye geçilmiştir. İlk anayasa olan Kanuni Esasi ile halkın düşüncelerinin yapılan seçimler ile parlamentoya yansımasına rağmen, halkın bu yönetime katılma hevesi uzun sürmemiştir. Zira Balkanlar'daki ayrılıkçı hareketler ve Rusya'nın emelleri çerçevesinde gelişen olayların ardından dönemin padişahı II. Abdülhamit tarafından Meclis 14 Şubat 1878 tarihinde feshedilmiştir. Türk tarihinin dönüm noktalarından olan meşruti monarşiye 30 yıllık bir aranın ardından tekrar aynı padişahın iradesi ile 23 Temmuz 1908 tarihinde geçilmiştir. Devlet idarecileri tarafından yapılan tüm iyi niyetli bu çalışmalar bağımsızlık mücadelesi veren milletlerin ayrılışlarını engelleyememiştir. Üstelik 20. yüzyılın başlarında meydana gelen siyasi gelişmeler ve savaşların neticesinde asırların birikimi olan coğrafyalardan kopuş süreci hızlanarak artmış olmanın yanında bu defa bin yıllık Türk yurdu dünya savaşının sonucunda istilaya uğramıştır. Bu işgal girişimlerine karşı halkın tepkisi en net biçimde işgaller kabul edilemez düzeyinde olmuştur. Lider kadronun tutumu da millet ile aynı olmakla beraber istiklalin yanında saltanat yönetiminin de reddine yönelik çalışmalar olmuştur. Bu amaçla demokrasinin öğelerinden olan ve dağıtılan son Osmanlı Mebusan Meclisinin yerine halkın temsilini sağlamak amacıyla yeni bir Meclisi tüm dış etkenlerden bağımsız olarak açmak olmuştur. Bu düşüncenin öncülüğünü de Mustafa Kemal Atatürk yaparak 23 Nisan 1920 tarihinde Ankara'da Meclisin açılışını gerçekleştirerek yegane amacına ulaşmıştır.

